QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 164 (5395) 13 **sentyabr** 2017-ci il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiymətі 40 qəpik**

# "Avropa İttifaqı bizim əsas ticarət tərəfdaşımızdır"

*Prezident İlham Əliyev Avropa İttifaqının Azərbaycandakı nümayəndəliyinin yeni rəhbərinin etimadnaməsini qəbul edib*



Səh 2

**Prezident İlham Əliyev sitrus meyvələri, çay və çəltik istehsalının inkişafı ilə bağlı Sərəncam imzalayıb**



3

## Rəsmi xronika

Mərakeş Kralı VI Məhəmməd Azərbaycan Prezidenti İlham Əliyevə təbrik məktubu ünvanlayıb.

* * *

Prezident İlham Əliyev Xəzər Zafir oğlu İbrahimin Azərbaycan Respublikasının NATO yanında Nümayəndəliyinin başçısı vəzifəsindən geri çağırılması haqqında Sərəncam imzalayıb.

* * *

Dövlət başçısının digər Sərəncamı ilə Faiq Nüsrət oğlu Bağırov Azərbaycan Respublikasının Türkiyə Respublikasında və eyni zamanda Makedoniya Respublikasında fövqəladə və səlahiyyətli səfiri vəzifəsindən geri çağırılıb.

* * *

Prezident İlham Əliyev Hacıqabul, Şamaxı və Zərdab rayonlarında ərazilərin suvarma suyu ilə təminatı layihələrinin davam etdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında Sərəncam imzalayıb.

* * *

Prezident İlham Əliyev Azərbaycan Respublikasında sitrus meyvələri, çay və çəltik istehsalının inkişafı ilə bağlı əlavə tədbirlər haqqında Sərəncam imzalayıb.

* * *

Prezident İlham Əliyev "Sosial sığorta ehtiyatından istifadə Qaydası"nın və "Sığortaolunanlar üzrə xüsusi hesaba əlavə vəsaitlərin ödənilməsi Qaydası"nın təsdiq edilməsi haqqında Fərman imzalayıb.

**Fuad Ələsgərov: "Aleksandr Lapşinin əfvi humanist məqsədlə atılmış növbəti addımdır"**



4

7

**Dünya mətbuatı Aleksandr Lapşinin əfv edilməsinə geniş diqqət ayırıb**




6

**Çionq Txi May: "Vyetnama çox gözəl təəssüratlarla qayıdacağıq"**



16

**Dünyanın ən güclü şahmatçısı Berlində məlum olacaq**



# "Avropa İttifaqı bizim əsas ticarət tərəfdaşımızdır"

## *Prezident İlham Əliyev Avropa İttifaqının Azərbaycandakı nümayəndəliyinin yeni rəhbərinin etimadnaməsini qəbul edib*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 12-də Avropa İttifaqının ölkəmizdəki nümayəndəliyinin yeni təyin olunmuş rəhbəri Kestutis Yankauskasın etimadnaməsini qəbul edib. AZƏRTAC xəbər verir ki, Avropa İttifaqının Azərbaycandakı nümayəndəliyinin yeni rəhbəri Kestutis Yankauskas fəxri qarovul dəstəsinin qarşısından keçdi. Kestutis Yankauskas etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi. Sonra Azərbaycan Prezidenti İlham Əliyev səfirlə söhbət etdi.

Avropa İttifaqının ölkəmizdəki nümayəndəliyinin rəhbəri Kestutis Yankauskas dedi: "Mən qarşılıqlı faydaya, ümumi dəyərlərə və bütün sahələrdə qarşılıqlı maraqlara əsaslanan Avropa İttifaqı-Azərbaycan əlaqələrinin bundan sonra da inkişaf etdirilməsi istiqamətində səylərimi əsirgəməyəcəyəm. Bu, təkcə enerji sahəsi deyil, eyni zamanda, nəqliyyat, iqtisadiyyatın şaxələndirilməsi, müasir dövlət və cəmiyyət qurulması kimi sahələri əhatə edir. Biz Azərbaycanın regionda sabit və etibarlı tərəfdaş kimi rolunu, tolerant, multikultural və dünyəvi cəmiyyət quran ölkə kimi əhəmiyyətini yüksək qiymətləndiririk. Cənab Prezident, mən əlaqələrimizin bundan sonra da möhkəmləndirilməsi işində Sizinlə qarşılıqlı etimada əsaslanan əməkdaşlığı səbirsizliklə gözləyirəm".



Ölkəmiz və əməkdaşlığımızın perspektivləri ilə bağlı xoş sözlərə görə minnətdarlığını bildirən dövlətimizin başçısı qeyd etdi ki, biz Avropa İttifaqı ilə tərəfdaşlığımızın səviyyəsindən çox məmnunuq və Avropa İttifaqı bizim əsas ticarət tərəfdaşımızdır. Əlbəttə ki, əməkdaşlığımız yalnız ticarət və energetika sahələri ilə məhdudlaşmır, geniş sahələri əhatə edir. Brüsselə son səfərini uğurlu səfər kimi dəyərləndirən dövlətimizin başçısı qeyd etdi ki, səfərindən dərhal sonra Azərbaycan ilə Avropa İttifaqı arasında tərəfdaşlığa dair yeni sənədin üzərində fəal danışıqlar prosesi başlanıldı və bu danışıqlar hazırda uğurla davam etdirilir. Prezident İlham Əliyev Azərbaycan ilə Avropa İttifaqı arasında əməkdaşlığın çox geniş gündəliyə malik olduğunu qeyd edərək siyasi əlaqələr, ölkəmizin demokratik inkişafı, energetika, nəqliyyat, təhlükəsizlik, humanitar, təhsil, mədəniyyət, multikulturalizm ilə bağlı məsələlər ətrafında səmərəli müzakirələrin aparıldığını vurğuladı. Dövlətimizin başçısı qeyd etdi ki, əməkdaşlığımızın daha da genişləndirilməsi üçün yüksək səviyyədə qarşılıqlı anlaşma mövcuddur. Prezident İlham Əliyev bildirdi ki, biz bu əməkdaşlığa önəm veririk və Avropa İttifaqına üzv dövlətlərin üçdəbirindən çoxu ilə artıq strateji tərəfdaşlıq haqqında sənədlər, bəyannamələr imzalanıb və ya qəbul olunub. Bunun əməkdaşlıq üçün çox gözəl əsas olduğunu deyən Prezident İlham Əliyev Azərbaycan ilə Avropa İttifaqı arasında yeni müqavilənin yaxın zamanlarda imzalanacağına əminliyini bildirdi.

Dövlətimizin başçısı Avropa İttifaqının Azərbaycanın ərazi bütövlüyü ilə bağlı mövqeyinin dəyişməz qalacağına ümidvar olduğunu ifadə etdi.

Prezident İlham Əliyevin ifadə etdiyi fikirlərə görə minnətdarlığını bildirən Avropa İttifaqının ölkəmizdəki nümayəndəliyinin rəhbəri Kestutis Yankauskas uzun illər təhlükəsizlik siyasəti ilə məşğul olduğunu vurğulayaraq, bu sahədə əldə etdiyi bilik və təcrübəsindən Azərbaycanın ərazi bütövlüyü kimi çox mühüm məsələnin həllində də istifadə edəcəyini dedi. Prezident İlham Əliyevin Brüsselə səfərinə və tərəfdaşlıq əlaqələrini özündə əks etdirən sənədə toxunan səfir bunun əhəmiyyətini vurğuladı və müqavilə ilə bağlı Brüsseldə fəal iş aparıldığını dedi.

# Prezident İlham Əliyev Tacikistanın Azərbaycanda yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 12-də Tacikistan Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Rustam Soliyevin etimadnaməsini qəbul edib. AZƏRTAC xəbər verir ki səfir Rustam Soliyev fəxri qarovul dəstəsinin qarşısından keçdi. Rustam Soliyev etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi. Sonra Azərbaycan Prezidenti İlham Əliyev səfirlə söhbət etdi. Prezident İlham Əliyev ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərinin uğurla inkişaf etdiyini bildirdi və qeyd etdi ki, Tacikistan Prezidenti ilə keçirdiyi görüşlər zamanı əməkdaşlığımızın daha da genişlənməsi ilə bağlı səmərəli müzakirələr aparılıb. İqtisadi əlaqələrimizə toxunan dövlətimizin başçısı ölkələrimizin nəqliyyat sistemləri və müxtəlif istiqamətlərdə yük daşımaları ilə bağlı yeni imkanların olduğunu qeyd etdi. Dövlətimizin başçısı dedi ki, humanitar, mədəni sahələrdə də əməkdaşlığımızın genişləndirilməsi üçün yaxşı potensial mövcuddur və bu sahələrdə əlaqələr uğurla inkişaf edir. Prezident İlham Əliyev Rustam Soliyevin səfirlik fəaliyyəti dövründə ikitərəfli münasibətlərimizin daha da genişləndirilməsi işində səylərini əsirgəməyəcəyinə ümidvar olduğunu bildirdi.

Azərbaycan Respublikasında səfir təyin olunmasından şərəf hissi duyduğunu deyən Rustam Soliyev Tacikistan Prezidenti Emoməli Rəhmonun salamlarını və yaxın zamanlarda dövlətimizin başçısı ilə görüşmək arzusunu Prezident İlham Əliyevə çatdırdı. Azərbaycan ilə Tacikistan arasında diplomatik əlaqələrin qurulmasının 25 illiyinin bu il qeyd olunacağını deyən səfir ikitərəfli dostluq münasibətlərimizin əsasının ümummilli lider Heydər Əliyev və Prezident Emoməli Rəhmon tərəfindən qoyulduğunu vurğulayaraq, bu siyasətin bu gün də uğurla davam etdirilməsi ilə bağlı Prezident İlham Əliyevə minnətdarlığını bildirdi. Səfir qeyd etdi ki, siyasi əlaqələrimiz yüksək səviyyədədir və ölkələrimiz BMT, ATƏT, MDB çərçivəsində sıx əməkdaşlıq həyata keçirir.

Görüşdə ölkələrimiz arasında enerji, kənd təsərrüfatı, təhsil, terrorizmə qarşı mübarizə və digər sahələrdə əməkdaşlığın inkişaf etdirilməsi ilə bağlı məsələlərə dair fikir mübadiləsi aparıldı.

Dövlətimizin başçısı Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmonun salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Tacikistan Prezidentinə çatdırmağı xahiş etdi.

# "Azərbaycan ilə Macarıstan arasında ikitərəfli dostluq və əməkdaşlıq münasibətləri yüksək səviyyədədir"

*Prezident İlham Əliyev Macarıstanın Azərbaycanda yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul edib*



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 12-də Macarıstanın ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Viktor Szederkenyinin etimadnaməsini qəbul edib. AZƏRTAC xəbər verir ki, səfir Viktor Szederkenyi fəxri qarovul dəstəsinin qarşısından keçdi. Viktor Szederkenyi etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev səfirlə söhbət etdi.

Prezident İlham Əliyev Azərbaycan ilə Macarıstan arasında ikitərəfli dostluq və əməkdaşlıq münasibətlərinin yüksək səviyyədə olduğunu dedi. Macarıstanın Azərbaycan üçün çox cəlbedici ölkə olduğunu deyən dövlətimiz başçısı qarşılıqlı səfərlərin getdikcə artdığını məmnunluqla vurğuladı. Siyasi əlaqələrimizin çox yaxşı səviyyədə olduğunu bildirən Prezident İlham Əliyev Macarıstanın Baş naziri Viktor Orban ilə müntəzəm görüşlərinin əlaqələrimizin genişləndirilməsi baxımından əhəmiyyətini qeyd etdi. Dövlətimizin başçısı bildirdi ki, Macarıstan Azərbaycan üçün təkcə Avropada deyil, dünyada ən yaxın dost və tərəfdaş ölkələrdən biridir.

İqtisadi əməkdaşlığımızın daha da genişləndirilməsinin önəmini qeyd edən Prezident İlham Əliyev ticarət dövriyyəsinin artırılması istiqamətində birgə səylərin zəruriliyini vurğuladı. Dövlətimizin başçısı, eyni zamanda, bildirdi ki, investisiya, nəqliyyat və enerji, əczaçılıq, kənd təsərrüfatı sektorunda əməkdaşlığın genişləndirilməsi üçün yaxşı imkanlar var. Humanitar və mədəniyyət sahələrində də əməkdaşlığın uğurla davam etdiyini deyən Prezident İlham Əliyev qeyd etdi ki, ölkələrimizdə artıq bir sıra qarşılıqlı mühüm mədəni tədbirlər keçirilib ki, bu da xalqlarımızın bir-birini daha da yaxşı tanıması və dostluq əlaqələrinin inkişaf etdirilməsi işinə xidmət edir.

Səfir Macarıstanın Baş naziri Viktor Orbanın salamlarını dövlətimizin başçısına çatdıraraq qeyd etdi ki, Baş nazir Azərbaycan Prezidenti ilə şəxsi dostluq əlaqələrini yüksək qiymətləndirir. O bildirdi ki, bu əlaqələr bir səfir kimi əməkdaşlığımızın daha da inkişaf etdirilməsi ilə bağlı mənim gələcək fəaliyyətimə istiqamət verir. Macarıstanlı diplomat iqtisadi əməkdaşlığımızın genişləndirilməsi üçün çox böyük imkanların olduğunu bildirdi. Sonra səfir dedi: "Mən sizin gözəl ölkənizdə səfir kimi fəaliyyət göstərməyimdən həddindən artıq məmnunluq hissi keçirirəm. Sizin ölkəniz, xalqınız, mədəniyyətiniz haqqında daha çox bilgi əldə etmək əzmindəyəm".

Görüşdə Azərbaycan ilə Avropa İttifaqı arasında əməkdaşlıq əlaqələrinin müxtəlif istiqamətlərdə daha da genişləndirilməsinin və Azərbaycanın Avropa İttifaqı ilə tərəfdaşlıq əlaqələrini özündə əks etdirən sənədin hazırlanmasının önəmi qeyd olundu və əməkdaşlığımızın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.

Dövlətimizin başçısı Macarıstanın Baş naziri Viktor Orbanın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Macarıstanın Baş nazirinə çatdırmağı xahiş etdi.

# Prezident İlham Əliyev sitrus meyvələri, çay və çəltik istehsalının inkişafı ilə bağlı Sərəncam imzalayıb



Prezident İlham Əliyev sentyabrın 12-də "Azərbaycan Respublikasında sitrus meyvələri, çay və çəltik istehsalının inkişafı ilə bağlı əlavə tədbirlər haqqında" Sərəncam imzalayıb. AZƏRTAC xəbər verir ki, sitrus meyvələri, çay və çəltik istehsalının inkişafının sürətləndirilməsi, bu sahənin potensial imkanlarından daha səmərəli istifadə edilməsi və məhsul istehsalına əhalinin marağının artırılması məqsədilə Lənkəran, Şəki, Yevlax, Ağdaş, Astara, Biləsuvar, Göyçay, Lerik, Masallı, Ucar, Zaqatala və Zərdab rayon icra hakimiyyətləri Kənd Təsərrüfatı Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Əmlak Məsələləri Dövlət Komitəsi və digər aidiyyəti mərkəzi icra hakimiyyəti orqanları ilə razılaşdırmaqla, sitrus meyvələri, çay və çəltik istehsalının artırılması üçün müvafiq infrastrukturun yaradılmasının iqtisadi cəhətdən səmərəliliyini nəzərə alaraq, əkinəyararlı torpaqların müəyyən olunmasını və təsərrüfat subyektlərinə ayrılmasını təmin etməlidirlər.

Kənd Təsərrüfatı Nazirliyi İqtisadiyyat Nazirliyi ilə birlikdə rayon icra hakimiyyəti orqanlarının təkliflərini və bu sahədə mövcud müsbət təcrübəni nəzərə almaqla, müvafiq rayonlar üzrə sitrus meyvələri, çay və çəltik istehsalının inkişafına dair proqramların layihələrini, çay plantasiyaları və sitrus meyvə bağları sahələrinin genişləndirilməsini stimullaşdırılmaq üçün təsərrüfat subyektlərinə dəstək mexanizmlərinin təkmilləşdirilməsinə dair təkliflərini 3 ay müddətində hazırlamalıdır. Eyni zamanda, "Aqrolizinq" Açıq Səhmdar Cəmiyyəti tərəfindən sitrus meyvələri, çay və çəltik istehsalçılarına zəruri kənd təsərrüfatı texnikasının, texnoloji avadanlıqların lizinq yolu ilə icarəyə verilməsini və ya satılmasını, onlara texniki servis xidməti göstərilməsini, habelə dövlət büdcəsi vəsaiti hesabına alınan pestisidlərin, mineral gübrələrin, tinglərin və toxumların güzəştli şərtlərlə satılması təmin olunmalıdır.

Bundan başqa, Kənd Təsərrüfatı Nazirliyi yerli və xarici çəltik sortlarının sınağının təşkilini, habelə seleksiya nailiyyətlərinin Azərbaycan Respublikası ərazisində kənd təsərrüfatı məhsulları istehsalı üçün istifadəsinə icazə verilmiş və mühafizə olunan seleksiya nailiyyətlərinin dövlət reyestrinə daxil edilməsini, sitrus meyvələri və çay bitkisinin tingçilik təsərrüfatlarının inkişafının dəstəklənməsi, sitrus meyvələri, çay və çəltik istehsalı sahəsində fitosanitar, informasiya-məsləhət xidmətlərinin və kadr potensialının gücləndirilməsi ilə bağlı zəruri tədbirlərin görülməsini təmin etməlidir.

İqtisadiyyat Nazirliyi Kənd Təsərrüfatı Nazirliyi ilə birlikdə çayçılıq sahəsinin inkişafının davamlı olaraq dəstəklənməsinin təmin edilməsi, fermerlər, tədarükçülər, emalçılar və ixracatçıların dövlət orqanları ilə qarşılıqlı əlaqələrinin daha səmərəli təşkil edilməsi üçün çay istehsalçıları və ixracatçıları assosiasiyasının yaradılması ilə bağlı müvafiq tədbirlər görməli, sitrus meyvələri, çay və çəltik istehsalçıları və emalçılarının investisiya layihələrinin, qanunvericiliyin tələbləri nəzərə alınmaqla, Sahibkarlığa Kömək Milli Fondu tərəfindən güzəştli şərtlərlə maliyyələşdirilməsini təmin etməli, qabaqcıl texnologiyalar tətbiq etməklə sitrus meyvələri, çay və çəltik istehsalının artırılmasına, emal və qablaşdırma müəssisələrinin yaradılmasına və inkişafına dəstəyi, o cümlədən bu sahəyə qoyulan investisiyaların təşviqini davam etdirməlidir. Həmçinin sitrus meyvələri, çay və çəltik istehsalı ilə məşğul olan sahibkarların istehsal etdikləri məhsulların ixrac potensialının artırılmasına, mümkün tərəfdaşların tapılmasına və birgə əməkdaşlıq layihələrinin həyata keçirilməsinə, iş adamlarının ixracla bağlı biliklərinin artırılmasına dəstək tədbirləri daha da genişləndirilməlidir.

Əmlak Məsələləri Dövlət Komitəsi sitrus meyvələri, çay və çəltik istehsalı ilə məşğul olan təsərrüfat subyektlərinin istifadəsində ki və ya onların istifadəsinə veriləcək yeni torpaq sahələri üzərində mülkiyyət və digər əşya hüquqlarının dövlət qeydiyyatına alınmasını təmin etməlidir.

Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti müvafiq rayonlar üzrə çay plantasiyalarının, çəltik tarlalarının və sitrus meyvə bağlarının meliorativ vəziyyətinin və su təminatının yaxşılaşdırılması, sututarların bərpa olunması, çəltik tarlalarında drenaj şəbəkələrinin tikilib istifadəyə verilməsi ilə bağlı zəruri tədbirlər görməlidir.

Maliyyə Sabitliyi Şurası isə aqrar sahədə sığortanın inkişafı ilə bağlı tədbirlərin sürətləndirilməsini təmin etməlidir.

## Müdafiə naziri Azərbaycanın Milli Qəhrəmanı Albert Aqarunovun qardaşı ilə görüşüb



Azərbaycan Respublikasının müdafiə naziri, general-polkovnik Zakir Həsənov İsrailə səfəri çərçivəsində Azərbaycanın Milli Qəhrəmanı Albert Aqarunovun bu ölkədə yaşayan qardaşı Rantik Aqarunov ilə görüşüb. Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüş zamanı ölkəmizin ərazi bütövlüyü və torpaqlarımızın müdafiəsi uğrunda şəhid olmuş Vətən övladlarının xatirəsi yad edilib, o cümlədən A.Aqarunovun həyat yolu, döyüşlərdə iştirakı bir daha xatırlanıb. Bildirilib ki, ölkəmizdə yaşayan digər xalqların nümayəndələri kimi, yəhudi əsilli bu qəhrəman da daim vətəni bildiyi Azərbaycanın ərazi bütövlüyü uğrunda döyüşüb, canını onun müstəqilliyi və suverenliyi uğrunda fəda edib. R.Aqarunov qardaşının xatirəsinə göstərilən yüksək diqqət və qayğıya görə ailəsi adından Azərbaycan dövlətinə minnətdarlığını bildirib.

# Furio de Angelis: Məcburi köçkünlərin Cocuq Mərcanlıya qayıtması böyük tarixi əhəmiyyət kəsb edir



***Baş nazirin müavini, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri, Beynəlxalq Humanitar Yardım üzrə Respublika Komissiyasının sədri Əli Həsənov sentyabrın 12-də BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının Azərbaycandakı nümayəndəliyinin rəhbəri Furio de Angelisi qəbul edib.***

Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsindən AZƏRTAC-a bildiriblər ki, görüşdə bu ilin oktyabrın 2-dən 6-dək Cenevrədə keçiriləcək BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının İcraiyyə Komitəsinin 68-ci sessiyasında Azərbaycan nümayəndə heyətinin iştirakı və səfərlə bağlı digər məsələlər haqqında fikir mübadiləsi aparılıb. Cocuq Mərcanlı kəndinin bərpası ilə bağlı Azərbaycan Respublikası Prezidentinin imzaladığı Sərəncamın, məcburi köçkünlərin öz doğma yurdlarına qayıtmasının böyük tarixi əhəmiyyət kəsb etdiyini deyən Furio de Angelis kənd sakinlərinin geriyə qayıdışından sonra BMT QAK-ın bir sıra işlərdə yaxından iştirak etmək, o cümlədən Cocuq Mərcanlıdan olan məcburi köçkünlər arasında müştərək qiymətləndirmənin keçirilməsini həyata keçirmək istədiklərini bildirib.

Əli Həsənov vurğulayıb ki, Prezident İlham Əliyevin uğurlu xarici siyasəti nəticəsində Azərbaycan hökuməti ilə BMT QAK arasındakı əlaqələr daha da inkişaf edir. O, bunun məcburi köçkünlər öz doğma yurdlarına qayıdandan sonra da davam edəcəyinə ümidvar olduğunu diqqətə çatdırıb. Bildirib ki, BMT QAK bu gün də Azərbaycan üçün vacib əhəmiyyət kəsb edən təşkilatlardandır və bu qurumun Azərbaycandakı nümayəndəliyi fəaliyyətə başladığı müddətdən bəri ölkəmizdəki qaçqın və məcburi köçkün problemlərinin həllinə davamlı və şəffaf şəkildə müxtəlif layihələr həyata keçirməklə yardımçı olub. Bu gün Cocuq Mərcanlı sakinləri arasında iş vərdişlərinin bərpa edilməsi, reabilitasiya proqramlarının və digər texniki proqramların hazırlanması kimi layihələrin həyata keçirilməsi daha məqsədəuyğun olardı. Bu qurumun Azərbaycandakı nümayəndəliyinin fəaliyyəti də müsbət dəyərləndirilən görüşdə bütün bunlar barədə ətraflı söhbət açılıb, perspektiv əməkdaşlıq məsələləri müzakirə olunub.

# Azərbaycan "AICT-2017" konfransında təmsil olunacaq

Sentyabrın 20-dən 22-dək Moskvada Elektrotexnika və Elektronika Mühəndisləri İnstitutunun (IEEE) təşkilatçılığı ilə İKT-nin tətbiqi üzrə XI beynəlxalq konfrans - "AICT-2017" keçiriləcək. Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) müxbir üzvü, AMEA İnformasiya Texnologiyaları İnstitutunun şöbə müdiri, texnika elmləri doktoru Ramiz Alıquliyev və həmin elm müəssisəsinin şöbə müdiri, texnika üzrə fəlsəfə doktoru, dosent Yadigar İmamverdiyev "AICT-2017" konfransının texniki proqram komitəsinin üzvləridirlər.




İnstitutdan AZƏRTAC-a bildirilib ki, konfrans çərçivəsində "Big Data"dan istifadə və onun idarə olunması, "Məlumatların əldə olunması (Data Mining) və informasiya mühəndisliyi", "İKT proqramlarında ən yeni tendensiyalar", "Tədqiqat, təhsil, humanitar və sosial elmlərdə İKT", "Biznes, idarəetmə və iqtisadiyyatda İKT", "Dövlət idarəçiliyində İKT", "Tibb və səhiyyədə İKT" və s. mövzular üzrə bölmə iclasları keçiriləcək. Müxtəlif illərdə keçirilmiş "AICT" beynəlxalq konfransları dünyanın 50-dən çox ölkəsində yüzlərlə tədqiqatçının diqqətini cəlb edib.

# Fuad Ələsgərov: "Aleksandr Lapşinin əfvi humanist məqsədlə atılmış növbəti addımdır"

*Prezidentin əfv Sərəncamından sonra Aleksandr Lapşin cəzasının qalan hissəsini çəkməkdən azad edilib və o, gedəcəyi yeri müəyyənləşdirməkdə tam sərbəstdir*



*Azərbaycan Respublikası Prezidentinin hüquq mühafizə orqanları ilə iş və hərbi məsələlər üzrə köməkçisi Fuad Ələsgərov Aleksandr Lapşinin əfvi və Mehman Əliyevin həbsdən azad olunması ilə bağlı AZƏRTAC-ın suallarını cavablandırıb.*

***- Hörmətli Fuad müəllim, Aleksandr Lapşinin əfvi və "Turan" informasiya agentliyinin rəhbəri Mehman Əliyevin həbsdən azad edilməsi son günlər ən çox müzakirə olunan məsələlərdəndir. Bu qərarları necə şərh edərdiniz?***

- Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev öz fəaliyyətində humanizm ideya və prinsiplərinə sadiqliyini daim təsdiq edir. Xatırlatmaq istərdim ki, 2017-ci il fevralın 10-da Azərbaycan Respublikasının Prezidenti cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə bağlı olmayan alternativ cəza tədbirlərinin tətbiqinin genişləndirilməsi barədə Sərəncam imzalayıb. Bu Sərəncamın məqsədi azadlıqdan məhrumetmə ilə bağlı cəzaların tətbiqinin azaldılması və şəxslərin cəmiyyətdən təcrid olunmadan islah edilmələrinə şərait yaradılmasıdır.

Digər tərəfdən, qəbul edilən çoxsaylı əfv və amnistiya aktları da bu humanist siyasətin tərkib elementləridir. Bildiyiniz kimi, 2003-cü ildən bəri qəbul edilmiş 5 amnistiya aktı 54 minə yaxın şəxsə tətbiq olunub. Eyni zamanda, həmin dövr ərzində Azərbaycan Respublikasının Prezidenti tərəfindən 3800-dən çox şəxsə şamil olunmuş 31 əfv sərəncamı imzalanıb. Bu sərəncamlarla azadlığa çıxmış şəxslərin arasında müxtəlif cinayətlərə görə məhkum edilmiş jurnalistlər, bloqerlər də olub. Yəni, əfvlə bağlı məsələlər dövlət başçısının diqqət mərkəzindədir, onun tapşırığı ilə Əfv Məsələləri Komissiyası məhkum olunmuş şəxslərin müraciətlərinə müntəzəm olaraq baxır. Bu, dinamik bir prosesdir.

Aleksandr Lapşinin əfvinə də humanist məqsədlə atılmış növbəti addım kimi baxılmalıdır. Ümumiyyətlə, A.Lapşin ilə bağlı iki hüquqi prosedur paralel olaraq nəzərdən keçirilirdi - cəzasının çəkilməsi üçün onun vətəndaşı olduğu İsrailə verilməsi və ya əfv edilməsi. Lapşinin həm məhkəmə prosesi zamanı, həm də Azərbaycan Prezidentinə ünvanladığı müraciətlərdə törətdiyi cinayətdən səmimi peşmançılıq keçirdiyini etiraf etməsi, Azərbaycanın ərazi bütövlüyünü tanıdığını bildirməsi, ailə vəziyyəti, xüsusilə azyaşlı övladının olması nəzərə alınaraq, cənab Prezident onun əfv olunmasını mümkün hesab edib və bu barədə müvafiq Sərəncam imzalayıb.

***- İmzalanmış Sərəncamdan sonra Lapşinin İsrailə verilməsi məsələsi hələ də gündəmdədirmi?***

- Sualınızla bağlı bir məsələyə aydınlıq gətirmək istərdim. Əfv Sərəncamından sonra bir sıra kütləvi informasiya vasitələrində Aleksandr Lapşinin başqa bir dövlətə ekstradisiya olunacağı və ya təhvil veriləcəyi barədə məlumatlar yayılıb. Lakin burada müəyyən hüquqi anlayışlar qarışdırılır. Belə ki, Aleksandr Lapşin əfv edildiyi üçün onun hansısa dövlətə verilməsi məsələsi artıq gündəmdən düşüb. Beynəlxalq konvensiyalara görə, məhkum edilmiş şəxsin başqa dövlətə verilməsinin məqsədi onun cəzasını vətəndaşı olduğu ölkədə çəkməsidir. Cənab Prezidentin əfv Sərəncamından sonra Aleksandr Lapşin cəzasının qalan hissəsini çəkməkdən azad edilib və o, gedəcəyi yeri müəyyənləşdirməkdə tam sərbəstdir.

Bizdə olan məlumata görə, A.Lapşin vətəndaşı olduğu İsrailə getmək arzusundadır. O, sağlamdır, səhhətində heç bir problem yoxdur və istədiyi zaman İsrailə gedə bilər.

***- Mehman Əliyevin həbsdən azad edilməsi ilə bağlı nə deyə bilərsiniz?***

- Mehman Əliyev barəsində seçilmiş həbs qətimkan tədbirinin dəyişdirilməsi ilə bağlı dövlət başçısına şəxsən müraciət edib. Cənab Prezident yenə də humanizm prinsiplərini əsas tutaraq həmin müraciətə dərhal münasibət bildirib və Mehman Əliyev barəsində həbs qətimkan tədbirinin dəyişdirilməsi imkanına baxılmasını tövsiyə edib. Burada xüsusilə vurğulamaq istərdim ki, məsələ ilə bağlı dövlət başçısının prokurorluq və məhkəmə orqanlarına müraciəti tapşırıq deyil, məhz tövsiyə formasında olub.

Əslində, Mehman Əliyevin həbsdən azad edilməsi, habelə Nardaran hadisələrinə görə məhkum olunmuş bir sıra şəxslərin cəzadan şərti olaraq vaxtından əvvəl azad edilməsi barədə bu yaxınlarda qəbul edilmiş qərarlar cənab Prezidentin 2017-ci il 10 fevral tarixli Sərəncamında əks olunmuş ideya və prinsiplərin reallaşdırılmasının təzahürüdür. Yeri gəlmişkən, bu Sərəncamın imzalanmasından sonrakı müddət ərzində aparılmış statistik hesablamalar göstərir ki, istintaq zamanı həbs edilmiş şəxslərin sayı 30 faiz azalıb.

Qeyd etməliyəm ki, həmin Sərəncamla verilmiş tapşırıqların icrası üzrə işlər bu gün də davam etdirilir. Belə ki, bu məqsədlə Cinayət Məcəlləsinə dəyişikliklərə dair hazırlanmış təkliflər artıq Azərbaycan Respublikasının Prezidenti tərəfindən Milli Məclisə təqdim edilib. Cinayət Prosessual və Cəzaların İcrası məcəllələrində dəyişikliklər üzərində iş isə yekunlaşmaqdadır. Hər üç məcəlləyə dəyişikliklərin eyni vaxtda qüvvəyə minməsi nəzərdə tutulur.

# Azərbaycan Heydər Əliyev Fondunun dəstəyi ilə Beynəlxalq Memarlar İttifaqının konqresində təmsil olunub




Seulda Beynəlxalq Memarlar İttifaqının (BMİ) növbəti konqresi keçirilib. Memarlıq sahəsində ən böyük beynəlxalq tədbir hesab olunan konqresdə 124 ölkəni təmsil edən 10 mindən çox iştirakçı, o cümlədən memar, hökumət rəsmiləri, elm adamları, tələbələr iştirak edib. “Memarlıq olimpiadası” adlanan konqresin təşkilatçısı Beynəlxalq Memarlar İttifaqı, Seul bələdiyyəsi və Koreya Memarlar İnstitutları Federasiyasıdır.

Azərbaycan konqresdə geniş nümayəndə heyəti ilə iştirak edib. Nümayəndə heyətinin tərkibinə Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin köməkçisi, Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərov, Azərbaycanın Koreya Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Rəmzi Teymurov və Azərbaycan Memarlar İttifaqının sədri Elbay Qasımzadə, memarlar daxil olub.

Üç ildən bir təşkil olunan BMİ-nin konqresləri çərçivəsində müxtəlif tədbirlər - sərgilər, simpoziumlar, seminarlar, müsabiqələr, konfranslar keçirilib. Bundan başqa, BMİ-nin ali orqanı olan Baş Məclisin iclaslarında qurumun rəhbər şəxsləri seçilib, hesabatlar dinlənilib.

Sentyabrın 10-da Beynəlxalq Memarlar İttifaqının Baş Məclisi çərçivəsində Azərbaycana həsr olunan təqdimat keçirilib.

Birinci vitse-prezidentin köməkçisi, Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərov gənc müstəqil ölkə olan Azərbaycanın müxtəlif sahələrdə əldə etdiyi uğurlardan danışıb, beynəlxalq aləmdə artan nüfuzu sayəsində respublikamızın dünyada etibarlı tərəfdaş kimi qəbul olunduğunu bildirib. O, Şərq və Qərb mədəniyyətinin qovuşduğu Azərbaycanda tarixən tolerantlıq və multikulturalizm ənənələrinin hökm sürdüyünü diqqətə çatdırıb.

A.Ələkbərov Azərbaycanın son illər bir çox beynəlxalq tədbirlərə, idman yarışlarına, mədəni və humanitar forumlara yüksək səviyyədə ev sahibliyi etdiyini bildirib, beynəlxalq ictimaiyyətin ölkəmizin təşkilatçılıq qabiliyyətini yüksək qiymətləndirdiyini diqqətə çatdırıb.






Birinci vitse-prezidentin köməkçisi Azərbaycanın gələcəkdə Beynəlxalq Memarlar İttifaqının konqreslərini təşkil etməyə hazır olduğunu bildirib. Azərbaycan Memarlar İttifaqının sədri Elbay Qasımzadə ölkəmizin memarlıq ənənələrindən, son illər inşa olunan və memarlıq nöqteyi-nəzərindən diqqət cəlb edən binalardan danışıb. O, rəhbərlik etdiyi qurumun Beynəlxalq Memarlar İttifaqının işində fəal iştirak etdiyini, Bakıda memarlıq sahəsində təşkil olunan beynəlxalq əhəmiyyətli tədbirləri, müsabiqə və festivalları xatırladıb. Qeyd edək ki, Seul toplantısında Baş Məclisin qərarı ilə Azərbaycan Memarlar İttifaqının sədri Elbay Qasımzadə Beynəlxalq Memarlar İttifaqının Büro üzvü seçilib. Sonra Azərbaycanın tarixi, təbiət gözəllikləri, mədəni irsi, tarixi və müasir memarlıq abidələrinə dair film nümayiş etdirilib. Konqres çərçivəsində keçirilən sərgidə Heydər Əliyev Fondunun dəstəyi ilə “Bakı Şərq və Qərb memarlığının kəsişməsində” adlı geniş guşə və pavilyon fəaliyyət göstərib.

Pavilyon və guşədə Azərbaycan tarixini, mədəniyyətini, incəsənətini, memarlığını, ədəbiyyatını, turizm imkanlarını təbliğ edən vəsaitlər, o cümlədən müxtəlif nəşrlər, xalça və milli geyim nümunələri, musiqi alətləri, Bakının tarixi və müasir memarlıq abidələrinin maketi, əl işləri, milli ornamentli suvenirlər nümayiş olunub. Bundan başqa ölkəmizə, onun tarixinə, görməli yerlərinə, müasir inkişafına, mədəniyyətinə, memarlığına, Azərbaycanda təşkil olunmuş beynəlxalq tədbirlərə, Birinci vitse-prezident Mehriban Əliyevanın və Heydər Əliyev Fondunun ölkəmizdə və xaricdə Azərbaycan mədəniyyətinin tanıdılması istiqamətində keçirdiyi tədbirlərə, Azərbaycanın tolerant və multikultural dəyərlərinə aid videoçarxlar təqdim olunub. Konqres çərçivəsində, həmçinin Heydər Əliyev Fondunun dəstəyi ilə Azərbaycan Memarlar İttifaqı və Azərbaycanın Koreya Respublikasındakı səfirliyi tərəfindən “Azərbaycan gecəsi” keçirilib. Gecədə Azərbaycanın tarixi və müasir memarlıq nümunələrini, Azərbaycanın təbiət gözəlliklərini əks etdirən fotosərgi təşkil olunub, habelə qonaqlara Heydər Əliyev Fondunun Azərbaycan haqqında müxtəlif nəşrləri təqdim edilib.

Beynəlxalq Memarlar İttifaqının rəhbər şəxslərinin, üzv ölkələrin nümayəndə heyətlərinin, diplomatik korpusun və yerli ictimaiyyət nümayəndələrinin təmsil olunduğu mərasimdə çıxış edən səfir Rəmzi Teymurov Azərbaycanın müasir dövrdə Prezident İlham Əliyevin rəhbərliyi altında uğurlu inkişafından söz açıb. Diplomat Birinci vitse-prezident Mehriban Əliyevanın Azərbaycan mədəniyyətinin dünyada tanıdılması və təbliği sahəsində gördüyü işlər barədə məlumat verib, onun rəhbərlik etdiyi Heydər Əliyev Fondunun ölkəmizdə və xaricdə həyata keçirdiyi layihə və tədbirlərin əhəmiyyətini qeyd edib.

Beynəlxalq Memarlar İttifaqının vitse-prezidenti Heydər Əli Azərbaycan ilə bağlı təəssüratlarını bölüşərək, ölkəmizin qədim və zəngin mədəniyyətə sahib olduğunu deyib. O, Azərbaycanda şahidi olduğu inkişafı, ölkə rəhbərliyinin mədəniyyətin qorunması və inkişafına göstərdiyi diqqəti yüksək qiymətləndirib.

“Azərbaycan gecəsi”ndə “Mirvari” rəqs ansamblının üzvlərinin, tarzən Şəhriyar İmanov və onun qrupunun ifasında milli rəqslərimiz, Azərbaycan etno-caz musiqisindən ibarət konsert proqramı təqdim olunub. Azərbaycan musiqisinin valehedici təsirinə düşən qonaqlar rəqqaslarımızla birgə “Yallı” gediblər. Rəsmi qəbulda Azərbaycan mətbəxinin təamları da təqdim olunub.

***Şahin Cəfərov***
***AZƏRTAC-ın xüsusi müxbiri***
***Seul***

# Çionq Txi May: “Vyetnama çox gözəl təəssüratlarla qayıdacağıq”

*Vyetnam Kommunist Partiyası Mərkəzi Komitəsinin katibi, Siyasi Büronun üzvü, Vyetnam KP MK-nın xalq kütlələri ilə iş şöbəsinin müdiri xanım Çionq Txi Mayın SƏS TV-yə müsahibəsi*

**- Artıq bir neçə gündür ki, ölkəmizdə səfərdəsiniz. Səfərlə bağlı təəssüratlarınız.**

- Mən çox şadam ki, Azərbaycana ilk səfərim məhz Yeni Azərbaycan Partiyasının dəvəti ilə baş tutub. Azərbaycana gəlməmişdən öncə ölkəniz haqqında məlumatlı idim. Lakin səfərim zamanı ölkənizin nə qədər gözəl və inkişaf etmiş olduğunun şahidi oldum. Mən burada dinamik, inkişaf edən ölkə gördüm. Vətəndaşlarınız qonaqpərvər və mehribandır. Mən əminəm ki, Azərbaycan, eləcə də paytaxt Bakı yaxın gələcəkdə daha da inkişaf edəcək.

**- Səfər zamanı Azərbaycan Prezidenti İlham Əliyevin qəbulunda oldunuz. Bu görüşdən hansı təəssüratlarla ayrıldınız?**

- Azərbaycana səfərimiz zamanı biz ilk olaraq Heydər Əliyev Mərkəzinə getdik və Azərbaycanın müstəqil dövlət kimi bu səviyyəyə çatmasında Ulu Öndərin rolunun bir daha şahidi olduq. Azərbaycan Prezidenti İlham Əliyev ilə görüşümüzdə Vyetnamla əlaqələrin daha da inkişaf etməsinə böyük diqqət ayırdığını gördük. Biz çox şadıq ki, Azərbaycan prezidenti Vyetnamı Cənub-Şərqi Asiyada özünün etibarlı tərəfdaşı hesab edir. Azərbaycan Prezidenti görüş zamanı Azərbaycan Vyetnam arasında iqtisadi əlaqələrin daha da inkişaf etdirilməsinin, ticarət dövriyyəsinin artırılmasının önəmini vurğuladı. Həmçinin bildirdi ki, ölkələrimiz arasında mövcud olan tarixi-mədəni əlaqələrin genişləndirilməsi çox vacibdir.

Biz həmçinin səfərimiz zamanı Azərbaycan Milli Məclisində olduq. Vyetnam Kommunist Partiyası ölkələrimiz, xalqlarımız arasında münasibətlərin inkişafını mühüm hesab edir. Biz Azərbaycan Prezidentinə, Yeni Azərbaycan Partiyasına və Milli Məclisə Bakıda olduğumuz müddətində bizə



göstərilən qonaqpərvərliyə görə dərin təşəkkürümü bildirirəm. Biz Vyetnama çox gözəl təəssüratlarla qayıdacağıq. Biz arzu edirik ki, Vyetnam Kommunist Partiyası ilə Yeni Azərbaycan Partiyası arasında əlaqələr ölkələrimiz arasında dostluq əlaqələrinin inkişafına xidmət etsin.

**- Biz bilirik ki, Vyetnam Kommunist Partiyası ilə Yeni Azərbaycan Partiyası arasında əlaqələr uğurla inkişaf edir. Qarşıda hansı perspektivlər var?**

- Partiyamızla Yeni Azərbaycan Partiyası arasında 2013-cü ildə əməkdaşlıq memorandumu imzalanıb. Bu sənəd partiyalar arasında əlaqələrin inkişafının əsasını təşkil edir. Lakin ikitərəfli münasibətlərimiz dərin köklərə malikdir. Belə ki, Vyetnam Sosialist Respublikasının ilk Prezidenti Ho Şi Minin 1959-cu ildə Azərbaycana səfər edib. Azərbaycanın Ümummilli Lideri Heydər Əliyev də 1983-cü ildə Vyetnamda səfərdə olub. Azərbaycan 1991-ci ildə dövlət müstəqilliyini əldə edib. Artıq 1992-ci ildən ölkələrimiz arasında diplomatik əlaqələrin təməli qoyulub. Bu il ölkələrimiz arasında diplomatik əlaqələrin yaradılmasının 25 illiyi tamam olur. 2014-cü ildə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Vyetnama dövlət səfəri edib, 2015-ci ildə isə Vyetnam Sosialist Respublikasının keçmiş Prezidenti cənab Çıonq Tan Şanq Azərbaycanda rəsmi səfərdə olub. Bizim Azərbaycana səfərimiz də əlaqələrin inkişafında mühüm əhəmiyyət kəsb edir. Vyetnam Kommunist Partiyası ilə Yeni Azərbaycan Partiyası arasında əlaqələr eyni zamanda ölkələr və xalqlar arasında dostluq əlaqələrinin daha da möhkəmləndirilməsi üçün mühümdür.

**- Vyetnam Kommunist Partiyası ICAPP çərçivəsində Yeni Azərbaycan Partiyası ilə əməkdaşlığını necə qiymətləndirir?**

- Partiyamız Yeni Azərbaycan Partiyasının ICAPP-dakı rolunu çox böyük qiymətləndirir. Biz ümid edirik ki, hər iki partiya ICAPP-ın fəaliyyətinin genişləndirilməsi istiqamətində əlindən gələni edəcək. Bu, beynəlxalq əlaqələrin inkişafı üçün mühüm əhəmiyyət kəsb edir. Məhz 2013-cü ildə partiyalar arasında imzalanan sənəddə də ICAPP çərçivəsində daimi görüşlərin keçirilməsi nəzərdə tutulub.

**- Bildiyiniz kimi, Azərbaycanın 20 faiz torpaqları Ermənistan tərəfindən işğal olunub. Biz Vyetnamın Dağlıq Qarabağ münaqişəsi ilə bağlı mövqeyini öyrənmək istərdik.**

- Azərbaycana səfərimiz müddətində keçirilən görüşlərdə də məsələ ilə bağlı mövqeyimizi bildirərək qeyd etmişik ki, Vyetnam Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normaları çərçivəsində sülh yolu ilə həllinə tərəfdardır. Biz arzu edirik ki, tərəflər problemin həllində ortaq nöqtəyə gələ bilsinlər.

***Nailə Məhərrəmova***

# Strateji Yol Xəritəsinin monitorinq və qiymətləndirmələri hər yarım ildən bir təqdim olunacaq

***Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə Strateji Yol Xəritəsinin monitorinq və qiymətləndirmələri hər yarım ildən bir təqdim olunacaq. İlin sonunda Strateji Yol Xəritələrinin icrası üzrə illik monitorinq və qiymətləndirmə nəticələri təqdim ediləcək. AZƏRTAC xəbər verir ki, bu barədə İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin (İİTKM) icraçı direktoru Vüsal Qasımlı Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə Strateji Yol Xəritəsinin yarımillik monitorinq və qiymətləndirmə hesabatlarına həsr olunmuş mətbuat konfransında deyib.***



“Həmin monitorinq və qiymətləndirmələr daha çox nəticə əsaslı olacaq. Çünki bütün indikatorlar illik tərtib olunduğuna görə yarımillik monitorinq və qiymətləndirmədə tərtib olunmuş indikatorlar qarşıya qoyulmuş hədəflər üzrə deyil, konkret fəaliyyətlər üzrə həyata keçirilib. Bu cür qiymətləndirmə Strateji Yol Xəritəsinin çox praktik, əhəmiyyətli və nəticə verən sənəd olmasını bir daha göstərib. Ümumi monitorinq və qiymətləndirmənin nəticələri onu göstərir ki, bu ilin 6 ayında nəzərdə tutulmuş tədbirlərin yarıdan çoxu icra edilməyə başlanıb, hətta bəzi tədbirlərin icrası tekunlaşıb. Bu, onu deməyə əsas verir ki, bütün tədbirlər ilin sonunadək icra ediləcək, əldə olunan nəticələr Strateji Yol Xəritəsində təqdim olunmuş hədəf göstəricilərinə uyğun olacaq”, - deyə V.Qasımlı qeyd edib.

İcraçı direktor bildirib ki, kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi üzrə tədbirlərin 6 faizi icra olunub, 42 faizinin isə icrasına başlanılıb. Dövlət Satınalmaları haqqında qanun layihələri işlənilib. Bunun əhəmiyyəti ondan ibarətdir ki, dövlət satınalmaları zamanı kiçik və orta sahibkarlığın bu satınalmalarda iştirak imkanı daha da genişləndiriləcək, ölkənin qeyri-neft sektorunun, xüsusən kiçik və orta sahibkarlığın hesabına daha münbit şərait yaradılacaq. Eyni zamanda, rəqabət məcəlləsi və müflisləşmə haqqında qanun layihələri də işlənib. Bu, bütövlükdə ölkədə biznes mühitinin daha da yaxşılaşdırılması və xarici investorların cəlbi baxımından əhəmiyyət kəsb edir.

Hesabatda əsas problemlər də müəyyənləşdirilib. Kiçik və orta sahibkarlıq sahəsində əsas problemlər “Tik - idarə et - təhvil ver” modelinin bundan sonra da daha sürətlə inkişaf etdirilməsi ilə bağlı tövsiyələr, özəl sənaye klasterləri, model müəssisə, kredit zəmanət fondunun yaradılması, biznes-inkubatorun yaradılması, startap layihələrinin dəstəklənməsi istiqamətində aparılan işlərin sürətləndirilməsi buna misaldır. V.Qasımlı deyib: “Eyni zamanda, uyğun qiymətə mənzil təminatının inkişafına dair Strateji Yol Xəritəsi üzrə nəzərdə tutulmuş tədbirlərin 88 faizi ya icra olunub, ya da icrasına başlanılıb. Artıq Yasamal kompleksində 1 və 9 mərtəbəli binanın tikintisinə start verilib. Binanın yaxınlığında orta məktəb və bağça kompleksi də inşa olunur. Uyğun qiymətə mənzil təminatının inkişafına dair Strateji Yol Xəritəsində nəzərdə tutulmuş bütün prioritetlər üzrə irəliləyişə nail olunub”.

İxtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsinin uğurla davam etdiyini deyən İİTKM-nin icraçı direktoru diqqətə çatdırıb ki, bu ilin ilk 6 ayında Azərbaycana gələn turistlərin sayı 24 faiz artıb. Bu dövrdə xarici vətəndaşların Azərbaycanda həyata keçirdiyi bank əməliyyatları 93 faiz artıb. Koordinasiyanın həyata keçirilməsi üçün Turizm Şurasının yaradılması, Milli Turizm Təbliğat Bürosunun təşkili, elektron vizanın verilməsi üçün müddətin 3 gündən 3 saata qədər endirilməsi, Bakı Ticarət Festivalının təşkili bütövlükdə strateji yol xəritələri çərçivəsində aparılan tədbirlər olaraq ölkədə turizmin inkişafına öz töhfəsini verib.

Azərbaycanda peşə təhsili və təliminin inkişafına dair Strateji Yol Xəritəsində icrasına başlanılmış tədbirlər 59 faiz təşkil edir. Orta peşə sahəsində ixtisasların sayı 123-dən 154-dək artırılıb. Telekommunikasiya və informasiya texnologiyalarının inkişafına dair Strateji Yol Xəritəsində icra olunmuş və icrasına başlanılmış tədbirlər 44 faiz təşkil edir. TASİM layihəsi ilə bağlı texniki iqtisadi əsaslandırmanın həyata keçirilməsi təmin edilib. E-dərslik edu.az portalında yeni dərsliklərin yerləşdirilməsi təmin edilib.

Ağır sənaye və maşınqayırmanın inkişafına dair Strateji Yol Xəritəsində icra olunmuş və icrasına başlanılmış tədbirlər 70 faiz təşkil edir. Sumqayıt Kimya Sənaye Parkı, “Daşkəsənfilizsaflaşdırma” ASC, “Azəralüminium” ASC ilə bağlı müəyyən işlər həyata keçirilib. “Bütövlükdə strateji yol xəritələrinin həyata keçirilməsi Azərbaycan iqtisadiyyatına öz töhfəsini verməkdədir. Belə şəffaf, hesabatlı bir monitorinq və qiymətləndirmə sisteminin qurulması strateji yol xəritələri üzrə Azərbaycan hökumətinin məhz açıq hökumət prinsipləri üzərində həyata keçirdiyi siyasətə tam uyğundur”, - deyə V.Qasımlı vurğulayıb.

# Çionq Txi May: Vyetnam Azərbaycanla hərtərəfli əməkdaşlığın inkişafında maraqlıdır

Sentyabrın 12-də Azərbaycan Respublikası Milli Məclisi sədrinin müavini Bahar Muradova Vyetnam Kommunist Partiyası Mərkəzi Komitəsinin katibi, Siyasi Büronun üzvü, Vyetnam KP MK-nın xalq kütlələri ilə iş şöbəsinin müdiri xanım Çionq Txi Mayın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb. AZƏRTAC xəbər verir ki, Bahar Muradova belə görüşlərin ölkələrimiz arasında əlaqələrin möhkəmlənməsinə xidmət etdiyini söyləyib. Milli Məclis sədrinin müavini vurğuladı ki, diplomatik əlaqələrin qurulduğu 25 il ərzində Azərbaycan-Vyetnam münasibətləri yüksələn xətt üzrə inkişaf edib. Vyetnam Kommunist Partiyası ilə Yeni Azərbaycan Partiyası (YAP) arasında əməkdaşlıq da uğurla inkişaf edir.



Azərbaycanın müstəqillik dövründə qazandığı nailiyyətlərə toxunan vitse-spiker bütün ölkələrlə siyasi, iqtisadi, humanitar sahələrdə əməkdaşlıq əlaqələrinin qurulduğunu bildirdi, beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığı yüksək dəyərləndirdi. Bahar Muradova münasibətlərin inkişafında Azərbaycanın və Vyetnamın dövlət başçılarının, parlament və hökumət rəhbərlərinin qarşılıqlı səfərlərinin rolunu xüsusi qeyd etdi. Ölkələrimiz arasında rəsmi diplomatiya ilə yanaşı, parlament diplomatiyasının da mühüm əhəmiyyət daşıdığını vurğuladı.

Vitse-spiker bildirdi ki, Prezident İlham Əliyevin Sərəncamına əsasən, gələn il Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi, o cümlədən Azərbaycan parlamentinin 100 yaşı qeyd olunacaq. Yarandığı gündən ölkənin tərəqqisində mühüm rol oynayan parlamentdə dostluq qruplarının fəaliyyəti də təqdirəlayiqdir. Qonaqlara Milli Məclisin tərkibi, komitələri və beynəlxalq əlaqələri barədə məlumat verən Bahar Muradova iqtidar partiyası olan Yeni Azərbaycan Partiyasının ölkənin tərəqqisində mühüm rol oynadığını, parlamentdə 71 deputatla təmsil olunduğunu nümayəndə heyətinin nəzərinə çatdırdı. Dağlıq Qarabağ probleminə toxunan vitse-spiker Vyetnamın iqtidar partiyasını bu münaqişənin həllinə töhfə verməyə çağırdı. Görüşdə Vyetnam nümayəndə heyətinin başçısı xanım Çionq Txi May Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə, beynəlxalq hüququn norma və prinsiplərinə əməl olunmaqla həllinə tərəfdar olduqlarını bildirdi. Azərbaycanla bağlı xoş təəssüratlarını bölüşən qonaq ölkələrimiz və xalqlarımız arasında mövcud olan ənənəvi dostluq münasibətlərindən söz açdı, Azərbaycanın müxtəlif dövrlərdə Vyetnama verdiyi dəstəyə görə minnətdarlığını ifadə etdi. O, münasibətlərin inkişafında Vyetnam xalqının lideri Xo Şi Minin və Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin mühüm rolu olduğunu qeyd etdi. Çionq Txi May YAP ilə əməkdaşlığın yaxşı məcrada inkişaf etdiyini söylədi. Vyetnamın iqtisadi potensialından, ticarət imkanlarından söz açan qonaq Azərbaycanla hərtərəfli əməkdaşlığın inkişafında maraqlı olduqlarını vurğuladı. Qeyd etdi ki, Azərbaycan Cənub-Şərqi Asiyada Vyetnamı özünün etibarlı tərəfdaşı hesab edə bilər.

Söhbət zamanı xanım Çionq Txi May Milli Məclisdəki həmkarlarına Vyetnam parlamenti və təmsil etdiyi siyasi partiya barədə məlumat verdi. Bildirdi ki, ölkəsində qadınların ictimai-siyasi fəaliyyətə cəlb olunmasına xüsusi önəm verilir, Vyetnam parlamentində qadın deputatlar 27 faiz təşkil edir. Səmərəli fikir mübadiləsi aparılan görüşdə Milli Məclisin Azərbaycan-Vyetnam parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Əli Məsimli, beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədr müavini Sevinc Fətəliyeva, YAP-ın nümayəndələri, Vyetnam KİV-lərinin təmsilçiləri iştirak ediblər.

## Dünya mətbuatı Aleksandr Lapşinin əfv edilməsinə geniş diqqət ayırıb




Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin İsrailin vətəndaşı Aleksandr Lapşini əfv etməsi ilə bağlı imzaladığı Sərəncam dünya mətbuatının diqqət mərkəzindədir. AZƏRTAC xəbər verir ki, BBC, Associated Press, EFE, TASS, Ria Novosti, Ukrinform agentlikləri, Euronews telekanalı, Vaşinqton Post qəzeti, EurasiaNet, Historyoftruth portalları, İsrailin 9-cu televiziya kanalı, Times of Israel, Haaretz, Asbarez qəzetləri, Britaniyada dərc olunan Jewish News qəzeti, İspaniyanın "La Vanguardia" nəşri, Türkiyə mətbuatı və digər kütləvi informasiya vasitələr Azərbaycan Prezidentinin Sərəncamı haqqında informasiyalarla yanaşı, ekspert rəyləri də təqdim ediblər.

İnformasiyalarda Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənovun dövlət başçısı İlham Əliyevin Sərəncamını AZƏRTAC-a şərh etdiyi bildirilir, onun fikirlərinə yer ayrılır. İsrailin 9-cu televiziya kanalının "Den" proqramında çıxış edən beynəlxalq münasibətlər sahəsində tanınmış ekspert Arye Qut Prezident İlham Əliyevin yaranmış vəziyyəti tamamilə düzgün qiymətləndirərək, İsrail vətəndaşının əfv edilməsi barədə Sərəncam imzaladığını bildirib. O deyib ki, Azərbaycan Prezidenti böyük humanistlik göstərərək Lapşini əfv edib. Belə bir humanist qərar üçün əsas verən İsrail və Azərbaycan dövlətlərinin həyat fəaliyyətinin demək olar ki, bütün sahələrini əhatə edən ən yüksək səviyyəli strateji və dostcasına qarşılıqlı münasibətlərdir.

Xarici KİV-lər Azərbaycanın işğal olunmuş ərazilərinə qeyri-qanuni səfər etmiş, Belarusda saxlanılmış A.Lapşinin 2016-cı ilin dekabr ayında Bakıya ekstradisiya edildiyini də xatırladır.

# "Nar"-ın dəstəyi ilə "Brain Ring" intellektual yarışları start götürdü

nar
Gəlin birlikdə böyüyək

Təhsil və elmə, mədəniyyət və maariflənmənin təbliğinə xüsusi önəm verən "Nar" intellektual bilik yarışlarını dəstəkləməyə davam edir. Artıq bir neçə ildir ki, "Brain Ring" yarışının sponsorluğunu öz üzərinə götürmüş mobil operator bu il də məşhur bilik yarışlarının baş sponsoru oldu. Sentyabr ayının 10-da "Brain Ring" intellektual bilik yarışlarının növbəti - doqquzuncu mövsümü start götürdü. "Brain Ring" bilik yarışlarında respublikanın müxtəlif bölgələri və ali məktəblərini təmsil edən komandalar iştirak edirlər. Dekabr ayının sonunadək davam edəcək yarışlar hər həftənin bazar günü saat 21:30-da AzTV vasitəsilə yayımlanır.

Yarışlarda qalib gəlmiş komanda xüsusi dizayn edilmiş "Bilik" kuboku ilə təltif ediləcək. "Bilik" kubokunun qalibi "Brain Ring 2017" Azərbaycan çempionu titulu uğrunda yarışmaq hüququ əldə edəcək.

"Nar" gəncləri stimullaşdırmaq üçün müxtəlif səpkili bilik yarışları, intellektual oyunları dəstəkləməyə çalışır və bununla da onların elmə, təhsilə, biliyə olan marağını artırmağa səy göstərir, maariflənməni təşviq edir. Artıq üçüncü "Brain Ring" mövsümüdür ki, televiziya tamaşaçılarının yarışlara olan marağını daha da artırmaq məqsədilə "Brain Ring" və "Nar" onlayn müsabiqə keçirirlər. Belə ki, verilişin yayımı zamanı "Nar"-ın "Twitter" hesabında qoyulan suala ən tez cavab verən izləyicilər xüsusi hədiyyələr qazanırlar. Beləliklə, "Brain Ring" həvəskarları bu intellektual yarışı izləmək fürsəti ilə yanaşı, həm də "Nar" operatorundan hədiyyələr qazanmaq şansı əldə edirlər.

"Azerfon" şirkəti 21 mart 2007-ci ildə "Nar Mobile" ticarət nişanı ilə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. "Nar" ticarət nişanı Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilib. "Nar" ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib. "Nar" şəbəkəsi hazırda ölkə ərazisinin 93%-ni əhatə edir və 6000-dən artıq baza stansiyası ilə 2 milyondan çox abunəçiyə yüksəkkeyfiyyətli xidmət göstərir. "Nar" məhsul, xidmət, tarif və kampaniyaları haqqında məlumatı nar.az internet səhifəsindən öyrənmək olar.



# Utanmasan, oynamağa nə var ki...

RÖVŞƏN
rovsen.rasulov@mail.ru

***Azərbaycan hakimiyyətinin humanizm və ədalət prisnsiplərinə, eləcə də, insanlıq faktoruna verdiyi yüksək dəyərlər hər zaman özünü sübuta yetirib. Demək olar ki, hər il, hətta bir ildə iki dəfə ölkə rəhbəri tərəfindən verilən əfv sərəncamları bu günə qədər yüz minlərlə ailələrin qovuşmalarına və sevinclərinə səbəb olub. Bu barədə kifayət qədər faktlar, dəlillər və sübutlar mövcuddur. Kimliyindən, siyasi baxışından və s. amillərdən asılı olmayaraq cinayət törətmiş insanlar azadlıq sevincini dadıblar.***

Bu dəfə də belə oldu. Daha dəqiq desək, bu dəfə heç əfv fərmanı belə imzalanmadı, Prezident İlham Əliyev Ona ünvanlanmış müraciətləri nəzərə alaraq, şəxsi tövsiyəsi sayəsində hüquq-mühafizə, ədliyyə və prokurorluq orqanlarına tapşırıqlarını verdi, nəticədə həm həbs cəzası almış məhbuslar, həm də barələrində həbs qətimkan tədbiri seçilmiş şəxslər, bilavasitə dövlət başçımızın humanizm prinsiplərindən yararlanaraq, azadlıqlarına qovuşmuş oldular. Onlar içərisində vergilərdən yayınma maddəsi ilə həbs edilən "Turan" İnformasiya Agentliyinin direktoru Mehman Əliyev, Nardaran hadisələrində həbs edilmiş şəxslər, hətta işğal altında olan torpaqlarımıza qeyri-qanuni səfərlər edərək, Azərbaycanın ərazi bütövlüyünün əleyhinə iş aparmış bloger Aleksandr Lapşin də var. Fəqət, ortada başqa məsələ də var...

Yeni gəlin görək, 25 ilə yaxındır ki, köhnə havalarını çalan və hər bir müsbət hadisəyə nırx qoyub, qansoran qara ağcaqanadlartək zəhlə aparan psevdomüxalifətçilər hansı davranışlarını sərgiləyirlər? Misal üçün, özünü "müstəqil jurnalist" kimi qələmə verən "Xural"ın baş redaktoru Əvəz Zeynallı durub-durub özünü elə yekəxana, elə "mübariz şəxsiyyət" kimi aparıb ki, gəl görəsən! Məsələn, Mehman Əliyevin azadlığa çıxmasının ardınca vəcdə gələn bu meydan təfəkkürlü binəva və özündən başqa kimsəyə lazım olnayan adam feysbukda yazıb ki, "zəhmətimiz hədər getmədi", ya da "digər siyasi məhbusların azadlığa çıxmaları üçün mübarizəmizi davam etdirəcəyik" filan-fülan...

Baxın, dövlət başçımız bu günə qədər bir sıra ölkə ziyalılarının, ictimai-siyasi xadimlərin, həmçinin, Əvəz Zeynallı istisna olmaqla, tanınmış mətbuat nümayəndələrinin ünvanlanmış müraciətlərini nəzərə alıb (!-R.), Əvəz Zeynallı isə bütün bunları qoyub bir kənara və necə deyərlər, özünü zorla dürtüb ortaya. Demək, o boyda müraciət edən nüfuzlu şəxsləri də tapdayıb-keçərək, Mehman Əliyevin həbsdən çıxmasında yalnız öz "zəhmətini" qiymətləndirib (?!-R.). Belə yerdə deyərlər e, deməzsən ki, aldatdım?! Mən hələ Arif Hacılını, eyni zamanda, "Mehman Əliyevin hüquqlarının müdafiəsi komitəsi" deyilən sadəlövhlər yığnağını demirəm...

Demək, dövlət başçımız Onda mövcud olan ən yüksək humanizm dəyərlərini nümayiş etdirir, prokurorluq və s. strukturlara bənzər işləri ədalətli həll etmək tapşırığını verir, Əvəz Zeynallı tipli qara-qura ağcaqanadlar isə bütün bunlara nırx qoymağa cəhdlər göstərirlər.

Yeri gəlmişkən, görəsən, Əvəz Zeynallı Mehman Əliyevin azadlığa buraxılmasının ardınca özü-özünə sual edibmi ki, özünü yuyulmamış çömçə kimi ortaya atmaqla, heç nəyə nail olmaq mümkün deyil? Bu adam düşünübmü ki, edilən çoxsaylı müraciətlərdən savayı, elə azadlığa çıxmasında "zəhmət" çəkdiyi Mehman Əliyevin özü də ölkə rəhbərinə müraciət edib? Axı nəyə görə, bu reallıqları zorla ictimai rəydən gizlətməyə çalışanlar bu qədər rəzilliklərə və rüsvayçılıqlara imza atırlar? Nə edəsən ki, atalar demişkən, utanmasan, oynamağa nə var ki...

# Azərbaycan demokratiyası Fransada qələbə qazandı

## *Yaxud Leyla Yunusun məşhur isterikası heç nəyi dəyişmədi...*

***Bu yaxınlarda "Sülh və Demokratiya İnstitutu"nun direktoru Leyla Yunusun həbsdə olduğu müddətdə Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevaya əfv olunması üçün yazdığı məktub vəkil Elçin Qənbərov tərəfindən ictimailəşdirilib. Daha dəqiq desək, "Leyla Yunusun dəbdəbəsi və yoxsulluğu" adlı kitabında bu barədə sübutlar qeydə alınıb. İş birliyi qurduğu və Azərbaycan əleyhinə fəaliyyət göstərən ermənipərəst təşkilatlar qarşısında "sınmayan hüquq müdafiəçisi" və QHT rəhbəri kimi fikir formalaşdıran Leyla Yunus və əri Arif Yunus qrantların oğurlanmasında və vergidən yayınmaqda ittiham edilib və 8 il 6 ay müddətinə həbs olunub, lakin sonradan Apellyasiya Məhkəməsi onun cəzasını yüngülləşdirərək, şərti həbslə əvəz edib. Azad olunduqdan sonra isə "SDİ" rəhbəri əri ilə birgə Azərbaycanı tərk edərək, Avropaya köçüb.***



### Leyla Yunus vədinə əməl edərək, özünü azadlıqdakı yaramaz kimi apardı!

Maraqlısı da budur ki, özünü "xəstə", əldən düşmüş qoca qadın" və s. kimi göstərən, L.Yunus bir müddət fəaliyyətini saxlasa da, sonradan Yunuslar cütlüyü yenidən Azərbaycan dövlətinin və hökumətin, o cümlədən, dövlət başçısının siyasətinə qarşı qeyri-obyektiv, qərəzli və sifarişli fikirlərlə çıxış etməyə başlayıb. O, bu vasitə ilə özünü məşhur sovet dissidenti və hüquq müdafiəçisi, Mordoviya həbsxanasında ölümünü gözə alaraq, sovet hakimiyyətinə boyun əyməyən Marçenkoya bənzətməyə çalışıb, fəqət, onun bu cəhdi boşa çıxıb.

Beləliklə, L.Yunusun real kimliyi bir daha özünü vəkil E.Qənbərovun kitabında ifşa edilib. Misal üçün, "SDİ" rəhbəri vaxtilə bu sözləri deyib: "Hakimiyyət məni həbsxana yaramazına çevirmək istəyir. Mən yaramaz olmağa hazıram. Lakin azadlıqdakı yaramaz". Göründüyü kimi, L.Yunus azadlığa çıxdıqdan sonra yalnız bir vədinə əməl edib - azadlıqda yaramaza çevrilib...

Heydər Əliyev adına Fondun Prezidenti

Mehriban xanım Əliyevaya

istintaq altında olan Leyla İslam qızı Yunus tərəfindən

**Hörmətli Mehriban xanım!**

**Mən Sizə Milli Məclisin deputatı, qayğıkeş ana və ziyalı qadın kimi müraciət edirəm. Ailəmiz çətin sınaqlar dövrünü yaşayır. Mən və həyat yoldaşım A.Yunus həbs olunmuşuq, qızımız tək qalıb. Bilmirəm, tale mənə neçə il ömür verib, lakin həyat yolumun sonunu ailəm arasında qarşılamaq istərdim.**

Hüquq müdafiəçisi kimi bütün fəaliyyətim boyu hakimiyyəti tənqid etmişəm, lakin heç vaxt özümü onun düşməni hesab etməmişəm. Müxtəlif illərdə mənim hakimiyyətlə münasibətlərim müxtəlif cür formalaşıb, lakin mən həmişə qarşılıqlı hörmət, aşkarlıq və fikir plüralizmi prinsiplərinə sadiq qalmışam.

Sizə qarşı mən hər zaman dərin hörmət hissi keçirmişəm. Sizin təşəbbüsünüzlə amnistiya aktı qəbul olunan zaman mən, başqa hüquq müdafiəçiləri kimi, Sizə minnətdar idim!

Bilirəm, Azərbaycan vətəndaşlarının əksəriyyəti Sizə, Heydər Əliyev adına Fondun Prezidenti kimi, kömək və ədalət naminə müraciət edirlər. Bu, elə-belə deyil. Deməli, insanlara real kömək var.

30 ildən artıq müddətdə mən də insanlara kömək etməyə çalışmışam. Xarakterimin emosionallığından irəli gələrək, heç də həmişə diplomatik qaydalara riayət etməmişəm. Lakin həyat öz düzəlişlərini edir. Mən hüquq müdafiəçisi kimi fəaliyyətimi bitirdim və bacardığımı etdim, buna görə bir anın içində, faktiki olaraq, yetim qalan qızımın taleyini qurban verdim. Bu, mənə əzab verir. Qızımdan ayrı qalmağım mənə korlanmış səhhətimdən (hepatit C, qaraciyərin parçalanması, görmənin pozulması və s.) və sərt hökmün çıxarılmasını gözləməkdən daha çox əziyyət verir.

**Hörmətli Mehriban xanım!**

**Sizdən mənim azad olunmağıma və ailəmizin yenidən qovuşmasına yardımçı olmağınızı xahiş edirəm. Ümid edirəm ki, mənim xahişim cavabsız qalmayacaq və Sizin qəlbinizdə rəhm oyadacaq.**

**Hörmətlə, L.İ.Yunus, 27.05.2015".**

Təkcə bu faktın özü L.Yunusun kim olduğunu kifayət qədər ortaya çıxarmış olur.

İndi isə vəkil E.Qənbərovun "Leyla Yunusun dəbdəbəsi və yoxsulluğu" adlı kitabındakı bir neçə cümləyə diqqət yetirək: "Budur - hakimiyyətlə "güzəşt edilmədən" mübarizə və yunussayağı "əyilməzlik". Sən demə, isti bucaqda, Amsterdamın, Praqanın və ya Antalyanın komfort şəraitində oturaraq, başqalarını mübarizəyə səsləmək və özündən sovet dövrünün dissidenti obrazı yaratmaq olarmış. Lakin həbsxanaya düşmək bəs edir ki, qürur və ləyaqət yoxa çıxsın? Alçalmaq, ağır xəstəlik görüntüsü yaratmaqla ağlamaq və deyinmək, satqınlığa getmək olarmış.

Bu yaxınlarda L.Yunusun Almaniyanın Esslingen şəhərindəki çıxışını oxudum. Orada o deyir ki, "Azərbaycanda hakimiyyətə gəlmiş əyalət nümayəndələri Azərbaycanı rüsvay edir". Ehtiyac yarananda, onun üçün hakimiyyətdəkilər ziyalı, rəhmli insanlardır, qrant yemək vaxtı çatanda isə, əyalət nümayəndələridir. L.Yunus bütün yaxınlarını, tanışlarını, hətta yad adamları Prezident İlham Əliyevdən və Birinci Xanım Mehriban Əliyevadan azad olunmasını xahiş etmək üçün səfərbər edib".

Göründüyü kimi, L.Yunus həbsxanada "əzabkeş", yaxud "məzlum" rolunu oynayarkən, radikal müxalifət mətbuatı onu "mübariz, əyilməz, sınmayan" hüquq müdafiəçisi kimi təqdim edərkən, bu adam qızı Dinaraya məktublar yazdırıb, hakimiyyətə göndərməsini israrla tələb edirmiş. Hətta "ağlamaqdan çəkinmə" (?-R.N.) deyərək, ona bacardığı qədər "yazıq" kimi görünməyi israrla tapşırmışdı. Həmin məktublar da sözügedən kitabda ictimailəşdirilib.

Ümumiyyətlə, bütün bunlardan sonra, məhz Azərbaycan hakimiyyətinin humanizmi sayəsində azadlığa çıxmış L.Yunusun sonradan yenidən köhnə şakərinə qayıtması bu adamın nə qədər çox sifətə malik olmasını bariz qaydada sübuta yetirir.

### TV "France-2" telekanalının jurnalistləri Eliz Lüse və Rolan Rişar böhtan və qərəzə söykənən reportajlarına görə Avropa Məhkəməsi qarşısında...

İndi isə, keçək digər bir məsələyə. Belə ki, hələ 2015-ci ilin sentyabrında Fransanın TV "France-2" telekanalının jurnalistləri Eliz Lüse və Rolan Rişar qeyri-obyektiv, əsassız və heç bir faktlara, sübutlara söykənməyən "araşdırma" apararaq, Azərbaycan hökumətini "despot", "aşırı avtoritar" və s. bənzətmələrlə dünyaya tanıtmağa cəhd göstərmişdilər. Lakin onlar bir reallığı unutmuşdular ki, Azərbaycanda "daş qayaya rast gəldi" deyilən bir ifadə var və bu dəfə onların böhtan dolu reportajları da qayaya dəyib param-parça olacaq. Çünki məhz həmin reportajın ardınca Azərbaycan hökuməti adıçəkilən jurnalistləri məhkəməyə verərək, simvolik 1 avro kompensasiya tələb etdi.

Azərbaycan hökuməti çatdırmaq istədi ki, ortada olan maraq dövlət marağıdır və bu marağı sona qədər qoruyub-müdafiə edəcək. Belə ki, sözügedən reportaj efirə getmişdi və həmin reportajda Azərbaycanı tanımayan Avropa ölkələrinin vətəndaşları ölkəmiz barədə qeyri-dəqiq və yalan informasiyalarla doldurulmuşdular.

### Vəkil Olivye Pardonun kökündən vuran sualları qarşısında real acizlik və susqunluq



Beləliklə, 2015-ci ildə Fransanın sabiq prezidenti Fransua Ollandın Bakıya rəsmi səfəri ərəfəsində Azərbaycana gələn TV "France-2" telekanalının jurnalistləri Eliz Lüse və Rolan Rişar burada ölkəmizi olduğu kimi deyil, tamamilə əks-istiqamətdə təqdim etmək üçün reportaj hazırladılar. Həmin qərəzli reportaj isə, xüsusilə, ölkəmizdə azad şəkildə fəaliyyət göstərən radikal müxalifət mediasında geninə-boluna yerləşdirildi. Söz yox ki, burada, faktiki olaraq, jurnalist obyektivliyi deyil, əksinə, düşmənçilik mövqeyi var idi.

Nəticədə, sözügedən reportaja görə, Azərbaycan dövlətinin iddiası əsasında Avropa Məhkəməsi qarşısına çıxan fransalı jurnalistlər ölkəmizin hüquqlarını müdafiə edən həmyerliləri - nüfuzlu vəkil Olivye Pardonun sualları qarşısında aciz qaldılar. Daha dəqiq desək, Azərbaycanı Şimali Koreyaya, Qvatemalaya, Burneyə, Botsvanaya bənzədən jurnalistlər ciddi sual zərbələrindən nokauta düşürüldülər.

### Danılmaz faktlar, sübutlar və Azərbaycan reallığı anti-Azərbaycan dairələri dalana dirədi

Sentyabrın 5-də sözügedən iddia əsasında ilk məhkəmə iclası keçirildi. Eliz Lüse və Rolan Rişar məhkəmədə hər vəchlə sübuta yetirməyə çalışdılar ki, onlar reportajı hazırlayarkən, ən incə detallara qədər araşdırmalar aparıb reallıqları göstərməyə çalışıblar və heç bir qərəzə və böhtana yol açmayıblar. Ancaq gəlin görək, bu həqiqətənmi belədir? Misal üçün, Azərbaycan dövlətinin mövqeyini müdafiə edən vəkil Olivye Pardon Azərbaycan əhalisinin sayını soruşduqda, jurnalistlər bu suala cavab verə bilməyiblər. Maraqlıdır, əgər onlar, həqiqətən də, ölkəmiz barədə obyektiv reportaj hazırlayıblarsa, elementar suala niyə cavablandırmaqda aciz qalıblar?

Keçək digər suala - paytaxt Bakıdan başqa Azərbaycanın daha hansı şəhərlərinin adlarını çəkə bilərsiniz? Bu sual da cavabsız qalıb və jurnalistlər Azərbaycanın heç bir şəhərinin adını çəkə bilməyiblər!

Bundan sonra ölkəmizin müdafiəsini həyata keçirən vəkil əsəbi halda əllərini yelləyərək deyib: "Təsəvvürünüzə gətirin ki, Azərbaycanın hansısa jurnalisti Fransanı diktatura ölkəsi adlandırıb və Fransa əhalisinin sayını, Marsel, Lion, Nant kimi şəhərlərinin adlarını bilmədən bu iddia ilə reportaj hazırlayıb. Heç bunu təsəvvürünüzə gətirə bilərsinizmi?!"

Cavabdehlər yenə də susub, gözlərini döyməkdə davam ediblər.

Vəkil Olivyenin növbəti sualları isə jurnalistləri, ümumiyyətlə, dalana dirəyib: "Bir ölkədə ölüm hökmü dəyişdirilibsə, qadınlar səs verirlərsə, eyni zamanda kişilərlə bərabər hüquqlara malikdirlərsə, sekulyarizm elan edilibsə, və bütün dini konfensiyalar azad və sülh şəraitində ibadət və ayinlərini reallaşdırırlarsa, Avropa konvensiyası milli qanunvericiliyin bir hissəsi kimi qəbul edilibsə, bu ölkəni diktator olaraq göstərmək nə qədər doğrudur?"

Bu da son deyil, belə ki, vəkil Olivye Pardon jurnalistlərdən soruşub: "Sizə məlumdurmu ki, Azərbaycan vətəndaşlarının Avropanın Apellyasiya Məhkəməsinə müraciət etmək hüquqları var və onların əksəriyyəti insan hüquqları məhkəməsinə müraciət edərək işləri udurlar, Azərbaycan dövləti isə, buna görə kompensasiyalar ödəyir? Diktatura rejimində bu, mümkün olardımı?!"

Bu sual da, təbii ki, cavabsız qalıb..!

### Fransalı jurnalistlərin "dadına çatan" Leyla Yunus etraflar etsə də, gözlərini ağardan məşhur isterika görüntüsünü bu məhkəmədə də sərgilədi - hədə gəlmək və aşkar şivənlik...

Bəs burada fransalı jurnalistlərin dadına kim çata bilərdi? Əlbəttə ki, başında "ağ saç" pariki, "qoca", məzlum", "əzabkeş", bir əlində "əsası", digərində isə "ürək dərmanı" olan L.Yunus və əri A.Yunus! Həmin L.Yunus ki, azadlığa buraxılması üçün Azərbaycan hakimiyyətinə və nüfuzlu ictimai-siyasi xadimlərinə yalvarış dolu məktublar yazıb və yazdırıb. Həmin L.Yunus ki, həmin məktublarında yalnız bir sözünə əməl edib - azadlıqda yaramaza çevrilib!

Vəkilin sualları qarşısında aciz qalaraq, Azərbaycan hakimiyyətinə qarşı reportaj hazırlayan jurnslitlərin dadına çatmaq istəyən L.Yunus qarşısındakı vəkilin suallarına doğru cavab verməyə məcbur olub. O, etiraf edib ki, həbsdə olduğu müddətdə həkimlər tərəfindən, mütəmadi yoxlanılıb, hətta avropalı parlamentarilərlə belə görüşüb. Bu kimi istisnası mümkün olmayan etiraflardan sonra vəkil L.Yunusa da sual edib ki, bunlardan sonra Azərbaycanı "diktatura ölkəsi" adandırmaq hansı vicdana əsaslana bilər? L.Yunus bu suala cavab verə bilmədi...

Ancaq bütün bunlardan sonra öz məşhur isterikasına sadiq qalaraq, "siz buna görə cavab verməli olacaqsınız" deyə Azərbaycan demokratiyasını sübuta yetirən fransalı vəkili hədələyib. Amma nəyə görə, həqiqəti, reallığı üzə çıxarıb, onları ifşa etdiyinə görəmi..? Çox yəqin ki, məhkəmənin gedişatında ermənilərin də Leyla və Arif Yunuslarla, Qənimət Zahidlə, Aqil Xəlillə, Rəhim Hacıyevlə, Vidadi İsgəndərli ilə və s. milli xəyanətkarlarla prosesi izləmələri hər şeyi tam çılpaqlığı ilə ortaya qoyub.

**Rövşən NURƏDDİNOĞLU**

***P.S.*** *Yeri gəlmişkən, sözügedən prosesdə cavabdehlərin şahidi olaraq daim Azərbaycana qarşı qərəzli hesabatları ilə yadda qalan "Sərhədsiz reportyorlar" jurnalist təşkilatının sədri Yoxan Bir də vəkil Olivye Pardonun sualı qarşısında aciz və susqun qalıb. Belə ki, vəkilin sözlərinə görə, "Sərhədsiz reportyorlar" təşkilatı ölkələrin azad söz və ifadəsinə əsaslanan reytinq cədvəlində Fransa 39-cu, Surinam isə 29-cu yerdə dayanır. SUAL: "Əgər belədirsə, Fransanı diktatura ölkəsi adlandırmaq mümkündürmü?"*

## Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində keçirilən monitorinq insidentsiz başa çatıb

**ATƏT**-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq, sentyabrın 12-də Füzuli rayonu Alxanlı kəndinin yaxınlığında Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində keçirilən monitorinq insidentsiz başa çatıb. Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, monitorinqi Azərbaycan tərəfindən ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anji Kaspşik, onun səhra köməkçiləri Oqnyen Yoviç və Saymon Tiller keçiriblər. Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş və nəzarət olunan Azərbaycan ərazisində isə monitorinqi şəxsi nümayəndənin səhra köməkçiləri Gennadi Petrika, Mixail Olaru və Martin Şuster aparıblar.





## Gücü çənəyə verən müxalifət

**RƏFİQƏ**

***Müxalifət düşərgəsində çox anormal vəziyyət yaranıb. Ölkədə hər hansı taleyüklü proses baş verəndə, Azərbaycan müxalifəti, düşür ortaya ki, "mən də varam". Bu da dağıdıcı müxalifətin sosial bazasının sıfıra bərabər olmasından və xalq tərəfindən qəbul olunmamasından irəli gəlir. İndi də 2018-ci ildə keçiriləcək növbəti prezident seçkilərinə müəyyən zaman qalmasına baxmayaraq, yenə də dağıdıcı müxalifətin canına vəlvələ düşüb. Yenə də, boş-boş hay-küy, yenə də eyni situasiya.***

Müxalifət həyasızcasına və utanmadan kütləvi aksiyalar keçirməyi planlaşdırdığını deyir. Soruşmaq lazımdır: ay boş bardağı dolu çanağa vuran ölü müxalifət, bunların kütləvi olması üçün elektoratınız o qədərmi çoxdur? Sual olunur: hansı kütlə və ya hansı kütləvilikdən söhbət gedir? Bir müddət öncə keçirmiş olduqları aksiyaların fiaskosunu, rəzalətini nə tez unutdunuz? Axı, siz o müxalifətsiniz ki, bu günə kimi həm təşkilatlarınız, həm ideyalarınız, fikirləriniz və məramlarınız da pərakəndədir.

Bu gün dağıdıcı ünsürlər səs-küy salmaqla qabağa keçəcəyini düşünür, ancaq 25 ildir ki, bu yolu qət etsələr də, bir o qədər də öz ifşalarına yaxınlaşırlar. Müxalifət qüvvələrinə yaraşan da elə budur. Bir də, müxalifət öz abırına hakim olmasa da, Azərbaycan qanunları öz göstərişlərinə hakimdir və əsla, hansısa siyasi qüvvə üçün xüsusi fərqlər tətbiq etməyib. Hər bir siyasi qüvvənin mövcudluğuna da, fəaliyyətinə də bərabər təminatlar yaradıb. Amma haqqında danışdığımız müxalifət ölkədə keçirilən seçkilər ərəfəsi hansı oyunları çıxardıb, həmin qanunlar üzərində hansı təhrifləri etməyə çalışacaqbax, bu, artıq tam başqa bir söhbətin mövzusudur.

### Muzdlu nökər, qalma bekar

Bütün bunlarla yanaşı, daha bir məsələ isə "mənəm-mənəm" deyən dağıdıcı müxalifətin arxasında hansısa xarici maraqlı qüvvələr və beynəlxalq təşkilatların dayanmasıdır. Bir də belə bir dəstəkçiyə nail olmaq cəhdi "muzdlu nökər, qalma bekar" şüarına müxalif funksionerləri həmişə əməl edib və bu gün də hər cürə həyasızlığı edir. Bir vaxtlar mitinqlərdə narıncı köynəklər geyinilirdi, xarici dövlətlərin bayraqları dalğalandırılırdı, bir başqa ölkənin prezidentinin portreti qaldırılırdı və inanın, bu, elə-belə jestlər deyildi. Daha dəqiqi, dünyaya və inqilab ixrac edənlərə mesaj idi ki, dediyiniz hər şeyi edərik, yetər ki, bizi dəstəkləyin. Bir nüansa da toxunaq ki, beynəlxalq təşkilatlar qeyd olunan təşəbbüsdə bulunduqları zaman belə, bu, müxalifətə olan sevgilərindən və ya həmin müxalifətin dəstəkçisi olmaq arzularından irəli gəlmir. Onlar bu zavallıları alət kimi o yan-bu yana fırlayıb, danışdırıb, ortaya atarag öz maraqlarını təmin etməyə çalışırlar. Kimin nəyinə lazımdır, bu uğursuzlar? Hansı özünə hörmət edən təşkilat onların perspektivinə inanar? Bu baxımdan, xarici maraqlı qüvvələrin müxalifət liderləri ilə iş birliyi reallıqdan çox-çox uzaqdır.

Beləliklə, müxalifətin, əslində, müxalifət deyil, köhnə və paslı tənəkə olması göz önünə gəlir. Belə tənəkələri isə, ən yaxşı halda, zibil qutusuna atırlar və bunların da tullantıya çevrilmək vaxtları o qədər uzaqda deyil.

# “Prezident İlham Əliyev ölkədə söz və ifadə azadlıqlarının təminatçısıdır”

*Aleksandr Lapşinin anası Bella Lapşina oğlunun “düşüncəsiz hərəkət” etdiyini bildirərək, “yalvarıram, onu bağışlayın və əfv edin” deyə Azərbaycan dövlətinə müraciət etmişdir*

Hazırda ermәni separatçılarının işğalı altında olan Dağlıq Qarabağa qeyri-qanuni səfər edən hər bir şəxs, turist, səyahətçi, səyyah və s. xarici vətəndaş fərqində olmalıdır ki, bununla beynəlxalq hüququn norma və prinsiplərini kobud şəkildə pozurlar. Söz yox ki, bu qanunları pozan istənilən şəxsi, xarici ölkə vətəndaşı belə cinayət etmiş olur və buna görə məsuliyyət daşıyır. Azərbaycan beynəlxalq qanulara əsaslanaraq sərhədlərini pozmuş istənilən xarici vətəndaşı belə ölkəsində mühakimə edə bilər. Bunu beynəlxalq təcrübə də təsdiq edir. Aleksandr Lapşinlə bağlı məsələdə də Azərbaycan özünün güclü dövlət olduğunu bir daha nümayiş etdirdi və bununla belə bir mesaj verildi ki, əslində, bütün dünya Azərbaycanın güclənmiş mövqeyi ilə hesablaşmalı, qanunlarımıza və ərazi bütövlüyümüzə hörmətlə yanaşmalıdırlar.



Beynəlxalq hüquq normalarının pozulmasında təqsirli bilinərək Azərbaycana ekstradisiya olunan və mühakimə edilən Rusiya və İsrail vətəndaşı olan Aleksandr Lapşinin anası Bella Lapşina oğlunun “düşüncəsiz hərəkət” etdiyini bildirərək, “yalvarıram, onu bağışlayın və əfv edin” deyə Azərbaycan dövlətinə müraciət etmişdi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev müraciətləri nəzərə alaraq 1976-cı ildə anadan olmuş, Bakı Ağır Cinayətlər Məhkəməsinin 2017-ci il 20 iyul tarixli hökmü ilə azadlıqdan məhrumetmə cəzasına məhkum edilmiş İsrail dövlətinin vətəndaşı Lapşin Aleksandr Valeryeviç cəza çəkməkdən azad edilməsi haqqında əfv Sərəncamı imzalayıb. Bu baxımdan, deyə bilərik ki, Aleksandr Lapşinin azadlığa buraxılması sırf humanizm prinsiplərinə əsaslanan bir addımdır.

A.Lapşinin azadlığa buraxılması ilə yanaşı, qanunsuz sahibkarlıq və vergi ödəməkdən yayınma maddələri ilə ittiham edilərək barəsində həbs qətimkan tədbiri seçilən, “Turan” İnformasiya Agentliyinin direktoru Mehman Əliyevin, eləcə də, Nardaran hadisələrində iştirak etmiş 14 şəxsin Cənab Prezident İlham Əliyevin təşəbbüsü ilə azadlığa buraxılmasını humanizm prinsplərinin təzahürü kimi qiymətləndirmək olar. Bu qərar Azərbaycanda demokratik prinsiplərin, informasiya azadlığının, kütləvi informasiya vasitələrinin müstəqilliyinin təmin edilməsinə dair Azərbaycan Prezidentinin dəyişməz mövqeyinin təcəssümüdür.

İsrail Xarici İşlər Nazirliyi Azərbaycan hakimiyyətinin blogger Aleksandr Lapşinin əfv edilməsi ilə bağlı qərarını alqışlayır və qurumun mətbuat katibi Emmanuel Nahşon, Azərbaycan Prezidentinin Lapşini əfv etməsindən məmnun olduğunu və onu tezliklə İsraildə görəcəklərinə şad olacaqlarını bildirib. Həmçinin, səfir Dan Stav bəyan edib ki, Azərbaycan Prezidentinin blogger Aleksandr Lapşinin əfv edilməsi barədə qərarını İsrail müsbət qarşılayır və Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllini, Minsk Qrupunun səylərini dəstəkləyir və Azərbaycanın ərazi bütövlüyünü tanıyır.

ATƏT-in Media Azadlığı üzrə nümayəndəsi Harlem Desir isə azərbaycanlı jurnalist Mehman Əliyevin həbsdən azad olunmasını müsbət addım olaraq alqışladığını, media azadlığı və jurnalistlərin təhlükəsizliyinin təmin olunmasında Azərbaycana yardım göstərməyə hazır olduqlarını bəyan edib.

Mehman Əliyevin həbsdən azad edilməsi, Nardaran hadisələrinə görə həbs olunmuş bir sıra şəxslərin cəzadan şərti olaraq vaxtından əvvəl azad edilməsi barədə qəbul edilmiş qərarları, Cənab Prezidentin 2017-ci il 10 fevral tarixli, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə bağlı olmayan alternativ cəza tədbirlərinin tətbiqinin genişləndirilməsi barədə Sərəncamında əks olunmuş ideya və prinsiplərin reallaşdırılmasının təzahürüdür.

Eyni zamanda, Mehman Əliyevin həbsdən azad edilməsi ölkə başçısı Cənab İlham Əliyevin media ilə bağlı məsələlərə həssas yanaşmasının növbəti bariz nümunəsi kimi də qiymətləndirilir. Dövlət başçısının ölkədə söz və ifadə azadlıqlarının təminatçısı olması dəfələrlə təsdiqini tapmış danılmaz reallıqdır. Dövlət başçısının bu humanist addımı, beynəlxalq aləmdə olduğu kimi, ictimaiyyət tərəfindən də müsbət qarşılanmışdır.

***İnam Hacıyev***

# Səudiyyə Ərəbistanında İŞİD intiharçılarının Müdafiə Nazirliyinə hücumunun qarşısı alınıb

Səudiyyə Ərəbistanının təhlükəsizlik qüvvələri “İslam dövləti” terrorçu qruplaşmasından olan silahlıların Ər-Riyadda Müdafiə Nazirliyinin binasına hücumunun qarşısını alıblar. Bu barədə SPA dövlət informasiya agentliyi rəsmi mənbəyə istinadla məlumat yayıb. AZƏRTAC xəbər verir ki, SPA-nın məlumatına görə, ölkənin dövlət təhlükəsizliyi idarəsi intiharçıların nazirliyin iki binasına hücumunun qarşısını alıb. İki terrorçu hələ öz məqsədlərini həyata keçirməzdən əvvəl saxlanılıb.

SPA agentliyinin ilkin məlumatına görə, terrorçular Yəmən vətəndaşlarıdır. Onlardan iki intiharçı kəməri, doqquz əldəqayırma qumbara, odlu və soyuq silahlar tapılıb. Krallığın təhlükəsizlik qüvvələrinin əməkdaşları, həmçinin iki Səudiyyə Ərəbistanı vətəndaşını saxlayıblar. Onların həbs edilmiş intiharçılarla əlaqəsi müəyyənləşdirilir.

Hüquq-mühafizə orqanları Ər-Riyad şəhərinin Ar-Rimal rayonunda terrorçuların partlayıcı kəmərdən istifadə etməyi öyrəndikləri evin üzərinə də həbs qoyublar. Mənbənin məlumatına görə, təhlükəsizlik qüvvələri habelə “krallığın təhlükəsizliyi əleyhinə əcnəbilərin mənafeyi üçün” çalışan Səudiyyə Ərəbistanı və digər ölkələrin vətəndaşlarını zərərsizləşdirə biliblər. Onların hamısı saxlanılıb.

# Cinayət Məcəlləsinin müxtəlif maddələri üzrə axtarılan 41 nəfər tutulub

Respublikanın daxili işlər orqanları tərəfindən ötən gün qeydə alınmış 84 cinayət faktından 14-nün üstü “isti izlər”lə açılıb. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Cinayət Məcəlləsinin müxtəlif maddələri üzrə axtarılan 41 nəfər tutularaq istintaq orqanlarına təhvil verilib. Respublikanın avtomobil yollarında baş vermiş beş yol-nəqliyyat hadisəsi nəticəsində 5 nəfər ölüb, 21 nəfər xəsarət alıb. Daxili işlər orqanlarının əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərlə əlaqəli şəkkiz fakt müəyyənləşdirilib. Cinayət törətməkdə şübhəli bilinən 21 nəfər tutulub.






## Təsir niyə əks-təsirə bərabərdir?

**İLHAM**

Xeyirxahlıq, insan ləyaqətinə və şərəfinə hörmət bəşər övladı üçün vacib xüsusiyyətlərdəndir. Amma gəlin razılaşaq ki, bu vacib şərtlərə heç də hər kəs riayət etmir. Daha doğrusu, kimin əlinə bir balaca imkan və fürsət düşsə qarşısındakı insanı əzir, digərini isə hörmətdən-izzətdən salmağa cəhdlər göstərir. Bu baxımdan, demək olar ki, bu cür dar düşüncəli məxluqlar görəndə və ya onlar haqqında eşitdikdə heyvana daha çox hörmət etməyə başlayırsan. Ən azından, ona görə ki, vəhşi təbiətin sakini olan heyvan həmcinsinə qarşı qəddarlıq nümayiş etdirmir. Hətta qəddarlığı ilə seçilən şirlər belə balaca və körpə heyvanlara toxunmurlar. Amma insan olan məxluq bu sadaladığım heyvanlardan daha amansız və daha qəddardır. Öldürməkdən, qətlə yetirməkdən heç zaman usanmır, dağıtmaqdan və viran qoymaqdan yorulmur. Statistik məlumatlara əsaslansaq, demək olar ki, bəşəriyyət yarandığı bu günə kimi müharibələr, lokal toqquşmalar, ümumilikdə 10 milyarddan artıq insan itkisinə səbəb olub. Əgər müharibələr olmasaydı, bu gün yer üzü bir metrə qədər qalınlığında qızıl örtüyünə bürünərdi. Lakin insan olan varlıq bu reallıqları qəbul etmir. Hələ də öldürür və dağıdır. Ən çox da hədəfə gələn müsəlmanlardır. İraqda, Suriyada, Miyanmada evləri dağılan, uşaqları yetim, anaları övladsız, qızları ərsiz qalan müsəlmanlardır. Yalnız son vaxtlar Miyanmada 3 minə yaxın müsəlman buddistlər tərəfindən qətlə yetirilib, 10 minə yaxın ev-eşik talan edilib və dağıdılıb. Dünya birliyi, xüsusilə də, haqq-ədalətdən, insan həyatına hörmətdən-izzətdən danışan beynəlxalq təşkilatlar, ayrı-ayrı güc mərkəzləri isə susur. Nədi-nədi, öldürülən müsəlmandır. İnsan hüquqlarının müdafiəçisi qismində çıxış edən “Fredoom Haus”, “Human RitchWatch” təşkilatları Arakanda baş verənlərə, ümumiyyətlə münasibət bildirmədi. Səbəb isə öldürülənin, diri-diri yandırılanın müsəlman olmasıdır. Ancaq 2001-ci il 11 sentyabrda Nyu-Yorkda iki göydələn atəşə məruz qaldığına görə, ABŞ Əfqanıstanı, daha sonra isə İraqı viran qoydu. 2014-cü ildə Bastiliyanın alınması münasibətilə Parisdə keçirilən izdihamda terror hadisəsi törədildiyinə görə, Fransa hökuməti BMT Təhlükəsizlik Şurasının 1973 saylı qətnaməsinin qəbul edilməsindən 4 saat sonra Liviyanı altını-üstünə çevirdi. Qəddafinin isə aqibəti hər kəsə məlumdur. Amma 25 ildən çoxdur ki, sarkisyanlar, köçəryanlar Dağlıq Qarabağı işğalda saxlayır, sərhədyanı ərazilərdə yaşayan azərbaycanlıları müxtəlif atıcı silahlarla qətlə yetirir, dünya birliyi isə heç bir əməli addım atmır. 1 milyondan çox insan ev-eşiyindən didərgin düşür, dünyanın aparıcı dövlətləri Sarkisyana gözün üstə qaşın var demir. Səbəb nədir? Yenə də, bizlərin müsəlman olmağımızdır. Demirəm ki, ABŞ-da və Avropada şir ürəkli Riçard peyda olunub. Heç o fikirdə də deyiləm ki, 9-cu, 10-cu səlib yürüşləri baş verir. Yalnız onu demək istəyirəm ki, müsəlman dünyasına qarşı ikili yanaşma, fərqli münasibət mövcuddur. Amma “dinsizin öhdəsindən, imansız gələr” misalı olmasın, bəzən dünyanın hərbi polisi rolunda çıxış edən ölkələrə özlərinin yetişdirdikləri qüvvələr ciddi zərbələr vurur. Bin Ladenin ABŞ-a hansı divanı tutduğunu hələ də amerikalılar yaddan çıxarmayıb. İndi də Kim Çen İn peyda olub. Sağını-solunu bilmədən və ya bilərəkdən hədələyir. O gün də birbaşa ABŞ prezidenti Donald Trampa hədələyici bəyanat ünvanlayıb ki, bir andaca ballistik raketlərin hücumu ilə Amerikanın mövcudluğuna son qoyar. Deylənə görə, D.Tramp hədədən necə qorxuya düşübsə, üç gün qızdırma içində yatıb. Vəziyyətinin hələ də ürəkaçan olmadığı barədə məlumatlar dolaşır. Əslində, Şimali Koreya liderindən nə desən gözləməyə dəyər. Adam-adamı öldürəndə, ya bıçaqdan, ya da tapancadan, ən ciddi halda da, qoşalülə tüfəngdən istifadə edər. Kim Çen İn isə rəqiblərini sıradan çıxarmaq üçün raketlərdən istifadə edir. Bir qədər əvvəl bibisinin ərini necə uzaqmənzilli raketə bağlayıb Yapon dənizinə atıbsa, hələ də onun qalıqlarını tapa bilmirlər. Yəni Şimali Koreya prezidenti hərgah ki, ABŞ-a daxil olsa insanları topla - tüfənglə deyil, raketlərlə məhv etməyə salışacaq. Yəqin bunu Tramp administrasiyası da çox yaxşı bilir. Ona görə də, əvvəlki hədə-qorxunu kənara qoyub, Kim Çen İnlə ağsaqqalların məsləhəti sayağı söhbətlər və danışıqlar aparır. Bu danışıqların necə nəticələnəcəyini demək çətin olsa da, görünən fakt həm də odur ki, beynəlxalq aləmdə müsəlman dünyasına qarşı bir ayrıseçkilik və ikili yanaşma mövcuddur.

# Azərbaycan məhsullarının dünya bazarına çıxışı daha da genişlənəcək

*Uzaqgörən siyasət və gərgin fəaliyyət nəticəsində, ölkəmizin sosial-iqtisadi inkişafı və dünya təsərrüfat sisteminə inteqrasiyası istiqamətində çox böyük nailiyyətlər əldə olunmuşdur. Aparılan düzgün iqtisadi siyasət nəticəsində, makroiqtisadi sabitliyə nail olunmuş və davamlı iqtisadi artımın əsası qoyulmuşdur.*



Son illər iqtisadiyyatın diversifikasiyası, qeyri-neft sahələrinin, eyni zamanda regionların inkişafı sürətlənmiş, sahibkarlığa dövlət dəstəyi gücləndirilmiş, əhalinin sosial rifahı davamlı olaraq yaxşılaşmışdır.

Aparılan islahatlar, görülən tədbirlər beynəlxalq təşkilatların hesabatlarında da öz əksini tapır. Belə ki, Davos Dünya İqtisadi Forumu verdiyi son hesabatda Azərbaycanla bağlı yenə də müsbət rəy bildirmiş, rəqabətqabiliyyətliyinə görə Azərbaycan üç pillə irəliləyərək, 37-ci yerdə qərarlaşmışdır. “Doing Business 2017” hesabatında isə, 65-ci pillədə qərarlaşmaqla, ölkəmiz dünyada üç və daha çox islahat aparan 29 ölkədən biri kimi dəyərləndirilir.

Azərbaycan məhsullarının dünya bazarına çıxışını təmin etmək iqtisadi inkişafa yeni töhfələr vermək üçün Avropa tələblərinə uyğun olan akkreditasiya sisteminin öyrənilməsi və bunun ölkəmizdə həyata keçirilməsi prioritet hesab olunur. Azərbaycanda uyğunluğun qiymətləndirilməsi sahəsində akkreditasiyanın beynəlxalq tələblərə uyğunlaşdırılması prosesinin davamı olaraq, Avropa İttifaqının Tvinninq aləti çərçivəsində start verilən yeni layihənin məqsədi, ölkəmizdə keyfiyyət infrastrukturu sahələrindən biri olan akkreditasiyanın inkişafına nail olmaqla, iqtisadiyyatda qeyri-neft sektorunun payının yüksəldilməsi və məhsulların ixrac qabiliyyətinin genişləndirilməsidir. Bu istiqamətdə Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən qarşıya bir sıra vəzifələr qoyulmuşdur ki, bunlar, əsasən, ticarətdə texniki maneələrin aradan qaldırılmasını, keyfiyyətli məhsulların istehsalını, istehsalat və xidmət göstərən müəssisələrdə mükəmməl idarəetmə sistemlərinin tətbiq edilməsini tələb edir.

Avropa İttifaqı ilə Azərbaycan arasında tərəfdaşlıq proqramı çərçivəsində həyata keçirilən ortaq layihələr xüsusi əhəmiyyət kəsb edir. Keyfiyyət infrastrukturu sahələrinin müasir təcrübəyə uyğunlaşdırılması ilə bağlı islahatlar çərçivəsində 2008-ci ildən Avropa İttifaqının Tvinninq alətindən istifadə olunur. İndiyə qədər 3 Tvinninq layihəsini uğurla icra etməklə keyfiyyət infrastrukturu sahələrini tənzimləyən qanunvericilik aktları beynəlxalq təcrübəyə uyğunlaşdırılıb. Tvinninq layihəsi nəticəsində Azərbaycanın Avropa Akkreditasiya Təşkilatına tamhüquqlu üzvlüyünün təmin ediləcəyi, qarşılıqlı tanınma haqqında sazişin imzalanacağı labüddür. Milli akkreditasiya sisteminin daha da təkmilləşdirilməsi, institusional islahatların aparılması, beynəlxalq təşkilatlarla kommunikasiyanın gücləndirilməsi, personalın bilik və bacarıqlarının artırılması kimi vacib məsələlər də öz həllini tapacaq.

Beləliklə, akkreditasiya sahəsində normalara və proseslərə dair Aİ və beynəlxalq təcrübəyə uyğun olaraq, ISO standartlarının tətbiqi, yerli mütəxəssislərin akkreditasiya sahəsində fəaliyyət göstərən beynəlxalq təşkilatlarda (ILAC, IAF və EA) müvafiq sahələr üzrə bilik və bacarıqlarının artırılmasına yardımçı olacaq. İnformasiya-İdarəetmə Sisteminin yaradılması, Avropa İttifaqı, Avropa Akkreditasiya Təşkilatı, Laboratoriyaların Akkreditasiyası üzrə Beynəlxalq Əməkdaşlıq təşkilatının və Beynəlxalq Akkreditasiya Forumunun (IAF) tələblərinə uyğunlaşdırılması kimi bir sıra komponentlər akkreditasiya sisteminin inkişafını, eyni zamanda Azərbaycanın dünya bazarına çıxışını daha da genişləndirəcək və dinamik inkişafa öz töhfəsni vercək.

***İnam HACIYEV***

# Cəmil Manizadə: “Buta Airways” Avropanın bir sıra şəhərlərinə uçuşları nəzərdən keçirir



Azərbaycanın ilk aşağıbüdcəli aviaşirkəti olan “Buta Airways” yaxın vaxtlarda Avropanın bir sıra şəhərlərinə də uçuşlar təşkil edəcək. Bununla bağlı artıq danışıqlar aparılır. AZƏRTAC xəbər verir ki, bunu sentyabrın 12-də Kiyevdə Bakı-Kiyev aviareysinin həyata keçirilməsi ilə bağlı təşkil olunan mətbuat konfransında “Buta Airways” şirkətinin direktoru Cəmil Manizadə deyib.

Onun sözlərinə görə, şirkət maksimum dərəcədə çalışır ki, ölkəmiz üçün prioritet olan turizmin inkişafı məqsədilə xarici dövlətlərə uçuşları artırsın. Ukraynaya hazırda çərşənbə axşamı və çərşənbə günü reyslərin həyata keçirildiyini deyən Manizadə yaxın aylardan başlayaraq Kiyevə cümə günü də uçuşun reallaşdırılacağını vurğulayıb. Sonrakı proseslərdə reyslərin artırılması sərnişinlərin marağından asılı olacaq. C.Manizadə bildirib ki, gələcəkdə şirkətin Ukraynanın digər şəhərlərinə də uçuşunun həyata keçirilməsi istisna deyil.

Xatırladaq ki, ilk mərhələdə aviaşirkət Kiyevdən başqa, Bakıdan Moskva (“Vnukovo” Hava Limanı), Antalya, Kazan, Mineralnıye Vodı, Tbilisi və Tehrana uçuşlar yerinə yetirir. Qış mövsümünün başlanması ilə (bu ilin oktyabr ayının 29-dan) “Buta Airways”in marşrut şəbəkəsinə İstanbul və Sankt-Peterburq kimi şəhərlər də əlavə olunacaq.

Loukost aviaşirkət olaraq, “Buta Airways” aviareyslərdə baqajın, əl yükünün daşınması, təyyarə göyərtəsində isti yeməklər, eləcə də təyyarədə yer seçimi kimi əlavə xidmətləri ödəniş müqabilində təklif edir.

Üç ölçünün cəmi üzrə 110 santimetrdən artıq olmayan ölçüdə və çəki məhdudiyyəti tətbiq olunmayan əl yükünün daşınması 25 avro təşkil edir. Analoji qiymətə çəkisi 23 kiloqrama qədər (daxil olmaqla) və üç ölçünün cəmi üzrə 158 santimetrdən artıq olmayan ölçüdə qeydiyyatdan keçirilən baqajı daşımaq mümkündür.

Saytda və ya kassada öncədən baqaj yeri üçün ödəniş edildikdə qiymət 20 avro təşkil edir. Aviaşirkətin bütün reyslərində sendviçlər və su pulsuz olaraq təqdim olunur. İsti yeməyi aviabiletin alınması prosesi zamanı 7,90 avro ödəniş etməklə öncədən sifariş etmək mümkündür. Həmçinin təyyarənin göyərtəsində müxtəlif içkilər və soyuq qəlyanaltılar əldə etmək mümkündür. Aviaşirkətin donanması müasir “Embraer” təyyarələrindən ibarətdir.

# “Zaman və məkan” adlı müsabiqə keçiriləcək

Azərbaycan Respublikası Kinematoqrafçılar İttifaqı

Azərbaycan Respublikası Kinematoqrafçılar İttifaqı “Zaman və məkan” adlı qısametrajlı sənədli filmlər üçün ssenari müsabiqəsi elan edib. İttifaqın mətbuat xidmətindən SİA-ya verilən məlumata görə, yaşı 35-ə qədər olan bütün şəxslər ssenari müsabiqəsində iştirak edə bilərlər..

Şərtlərə görə hər bir müəllif 3 ssenaridən artıq təqdim edə bilməz. Birinci yerin sahibinə 1500, ikinciyə 1000, üçüncüyə isə 500 manat məbləğində pul mükafatı veriləcək. Ssenari müsabiqəsinin keçirilməsində məqsəd kinematoqrafiya sahəsində gənclərin yaradıcılıq fəaliyyətini inkişaf etdirmək, gənc və istedadlı müəllifləri aşkara çıxarmaq, həmçinin milli kinomuza yeni fikir, yeni nəfəs gətirməkdir. Ssenarilər oktyabrın 31-nə qədər təqdim edilməlidir

## Avropa Parlamenti qaz təchizatı təhlükəsizliyinin tənzimlənməsi məsələsini müzakirə edəcək

Avropa Parlamenti sentyabrın 12-də qaz təchizatı təhlükəsizliyinin tənzimlənməsi məsələsini müzakirə edəcək. AZƏRTAC xəbər verir ki, bu barədə Avropa Parlamentinin saytında deyilir. Belə ki, hər hansı bir Avropa İttifaqı (Aİ) ölkəsi qaz tədarükü böhranı ilə qarşılaşdıqda qonşu ölkələri xəbərdar edə biləcək və sərhədlərin bağlanmasının qarşısını almaq üçün transsərhəd yardımı ala biləcək. Qeyd edək ki, Avropa İttifaqının sərf etdiyi enerjinin 53 faizini gündəlik 1 milyard dollardan çox olmaqla idxal edir. Enerji Aİ-nin ümumi idxalının 20 faizindən çoxunu təşkil edir. Aİ 90 faiz xam neft və 66 faiz təbii qaz idxal edir.

## Yeddi ayda Azərbaycanda qeyri-neft ixracı 20 faiz artıb

Bu ilin yeddi ayında Azərbaycanda qeyri-neft ixracı 855 milyon ABŞ dolları təşkil edib. Bu, ötən ilin müvafiq dövrü ilə müqayisədə 20 faiz çoxdur. AZƏRTAC xəbər verir ki, bu barədə İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktoru Vüsal Qasımlı deyib. İcraçı direktor qeyd edib ki, yeddi ayda 1333 şirkət Azərbaycandan ixrac həyata keçirib. Qeyri-neft ixracında lider ölkə isə Rusiyadır.

## İspaniya portalı SOCAR və BP arasında yeni razılaşma haqqında yazır

İspaniyanın energetika məsələləri üzrə ixtisaslaşmış “energia16.com” portalında “Azərbaycana aid yataqlarda BP-nin payı azalacaq” sərlövhəli yazıda bildirilir ki, BP və Azərbaycan dövlət şirkəti olan SOCAR arasında yeni razılaşmaya əsasən Britaniya şirkətinin Xəzər dənizinin Azərbaycana aid hissəsindəki yataqlarda payı azaldılacaq. Xəzərdəki yataqların işlənməsi ilə bağlı cari müqavilə 2024-cü ildə bitəcək. Hazırda BP və SOCAR arasında 2050-ci ilə qədər müddəti əhatə edəcək yeni müqavilənin imzalanması ilə bağlı razılıq əldə olunub. “Reuters” informasiya agentliyi öz mənbələrinə istinadən məlumat verir ki, yeni müqavilədə SOCAR, xarici şirkətlərin, o cümlədən BP-nin paylarının azalması hesabına öz payını artıracaq. SOCAR-ın isə öz payını hazırkı 11.6 faizdən 20 faizədək artıracağı gözlənilir. Bütün bu yayılan məlumatlara baxmayaraq BP-Azərbaycan şirkətinin mətbuat katibi bildirib ki, yeni müqavilənin detalları haqqında onda heç bir məlumat yoxdur.

*Ölkə daxilində regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrası ilə bağlı işlər sürətlə davam etdirilir. Bu istiqamətdə çox böyük işlər görülmüşdür. Azərbaycanın daxili imkanları genişləndikcə, sosial sahələrə də diqqət artırılır. Belə ki, ölkə daxilində infrastruktur yenidən qurulur, görülən işlər müasir səviyyədə həyata keçirilir.*

# Müasir tipli körpələr evi-uşaq bağçaları balacaların yolunu gözləyir



Əlbəttə ki, dünyanın inkişaf etmiş ölkələri sırasında yeri olan Azərbaycanın sürətli inkişafı bütün sahələrdə özünü büruzə verir. Təhsil ocaqlarının, uşaq bağçalarının yenidən qurulması, təmiri və inşası istiqamətində də davamlı olaraq işlər görülür. Belə ki, bu gün Azərbaycanda müasir standartlara cavab verən, müasir tipli məktəblər, uşaq bağçaları istifadəyə verilib. Bu sahədə görülən işlər həm regional proqram, həm Bakı qəsəbələrinin inkişafı proqramı çərçivəsində öz həllini tapmaqdadır.

Gələcək nəslin sağlam düşüncəli, yetkin bir şəkildə cəmiyyətə inteqarasiya olunmasında, sözsüz ki, uşaq bağçalarının rolu müstəsnadır. Ölkədə olan uşaq bağçalarının da yenidən qurulmasına müasir dövrümüzdə ehtiyac duyulduğundan, bu sahədə işlər sürətlənib. Ölkə əhalisinin artması bu tələbatı daha da artırmış oldu. Sovet dövründə istifadəyə verilən bağçalar, artıq müasir tələbatlara cavab vermir. Belə olduğu halda, yeni uşaq bağçalarının inşa olunması, təmir və bərpa etdirilməsi zəruriliyi yaranmış oldu. Təbii ki, köhnə metodlar artıq uşaqların tərbiyə müəssisəsində tədbiq olunmur. Uşaqların gələcək inkişafının, demək olar ki, ilkin təməli, məhz burada qoyulur. Odur ki, bu müəssisələrdə dövlətin diqqəti xüsusidir. Müasir körpələr evi-uşaq bağçalarının istifadəyə verilməsi, bunun əyani təsdiqidir. Yeni uşaq tərbiyə müəssisələrinin inşasına, eləcə də, mövcud olanların ən müasir tələblər səviyyəsində yenidən qurulmasına dövlət tərəfindən həyata keçirilən proqramlarla yanaşı, Heydər Əliyev Fondu da xüsusi töhfə verir.

## HEYDƏR ƏLİYEV FONDUNUN TƏŞƏBBÜSÜ İLƏ İSTİFADƏYƏ VERİLƏN UŞAQ BAĞÇALARINDA BALACALARIN TƏLİM-TƏRBİYƏSİ VƏ İSTİRAHƏTİ ÜÇÜN HƏR CÜR ŞƏRAİT YARADILIB



Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı Səfiri Mehriban Əliyeva respublikada baş verən ictimai və mədəni proseslərin gedişində daim milli dövlətçilik mövqeyindən çıxış edərək, Azərbaycan əhalisinin sağlamlığı, xoşbəxtliyi, firavanlığı, sülh və əmin-amanlığın müdafiəsinə töhfələrini verir. Gənc nəslin təhsili və sağlamlığının qorunması Heydər Əliyev Fondunun fəaliyyətinin prioritet istiqamətlərindən biri olduğundan, fond ölkədə həyata keçirilən təhsil və səhiyyə islahatlarında xüsusi fəallıq nümayiş etdirir. Heydər Əliyev Fondunun bu sahədə həyata keçirdiyi tədbirlər isə birbaşa genefondun qorunmasına, bu sahədə mövcud problemlərin əsaslı həllinə yönəlmişdir. Məktəbəqədər hazırlıq müəssisələrinin, uşaq bağçalarının müasir standartlar səviyyəsində qurulması, onların maddi-texniki bazasının gücləndirilməsi Heydər Əliyev Fondunun diqqət mərkəzindədir. "Uşaq evləri və internat məktəblərinin inkişafı proqramı" çərçivəsində ölkəmizdə uşaq evi və internat məktəbi əsaslı təmir olunub və bu müəssisələrdə yaşayan uşaqların problemləri daim diqqətdə saxlanılıb. Müasir tələblərə cavab verən uşaq evlərində inşa edilmiş hamam, üzgüçülük hovuzu, yay konsert meydançası, stadion, iclas, idman, rəqs salonları, həyətdəki yaşıllıqlar, uşaqların əl işləri muzey-sərgisi burada balacaların fiziki və əqli cəhətdən sağlam böyüməsi üçün hər cür şərait yaradılması fondun xeyirxah fəaliyyətinin bəhrəsinə əyani sübutdur.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun Xoşməramlı Səfiri Mehriban xanım Əliyevanın bu sahədə həyata keçirdiyi islahatlar mövcud problemlərin əsaslı şəkildə həllinə yönəlmişdir. Belə ki, uşaq bağçalarının müasir standartlar səviyyəsində qurulması, onların maddi-texniki bazasının gücləndirilməsi yönümündə görülən işlər də öz nəticəsini verir. Bildiyimiz kimi, Azərbaycanın bir sıra rayonlarında Fondun təşəbbüsü ilə inşa edilən uşaq bağçaları dediklərimizi əsaslandırır. Son illərdə Qəbələdə, Qaxda, Beyləqanda, Tovuzda, Samuxda və başqa rayon və şəhərlərdə fondun təşəbbüsü ilə istifadəyə verilən uşaq bağçalarında balacaların təlim-tərbiyəsi və istirahəti üçün hər cür şərait yaradılıb. Balacaların təhlükəsizliyi təmin edilib. Bu bağçalar digərlərindən fərqli olaraq layihə əsasında inşa olunub. İdman otaqlarının müəssisələrdə istifadəyə verilməsi uşaqlarda kiçik yaşlarından idmana həvəs oyatmaqla yanaşı, onların fiziki sağlamlıqlarının möhkəmlənməsinə istiqamətlənib. Uşaqların dünyagörüşünü zənginləşdirmək üçün müxtəlif əyani vəsaitlərin istifadəyə verilməsi də bağçaların yeni bir formada qurulmasına gətirib çıxarıb. Belə ki, bura təlim-tərbiyə müəssisəsidir. Onların orta məktəbə hazırlanması məsələsinə də diqqət ayrılır. Bağçalarda uşaqlar üçün nağıllar dünyasını əks etdirən detallara xüsusi diqqət ayrılır ki, bu da uşaqların dünyagörüşünün formalaşmasına təsirini göstərir.

## AZYAŞLILARIN ZÖVQÜNƏ UYĞUN QURULAN MÜƏSSİSƏLƏRDƏ ONLARIN RAHATLIĞI VƏ İLKİN BİLİKLƏRƏ YİYƏLƏNMƏLƏRİNƏ LAZIMİ ŞƏRAİT YARADILIB

Görülən işlərin davamı olaraq bu günlərdə yenidənqurmadan sonra daha bir neçə körpələr evi-uşaq bağçaları istfadəyə verilib. Birinci vitse-prezident Mehriban Əliyeva körpələr evi-uşaq bağçasında yenidənqurmadan sonra yaradılan şəraitlə tanış olub. Bakının Sabunçu rayonunun Bakıxanov qəsəbəsində əsaslı şəkildə təmir edilərək yenidən qurulan 105 nömrəli körpələr evi-uşaq bağçası, eləcə də, paytaxtın Nəsimi rayonunda yerləşən "Qərənfil" körpələr evi-uşaq bağçası balaca sakinlərini qəbul etməyə hazırdır.

Qeyd edək ki, Heydər Əliyev Fondunun dəstəyi ilə əsaslı təmir edilən "Qərənfil" körpələr evi-uşaq bağçası 1968-ci ildən fəaliyyət göstərir. Bu gün 225 uşaq yerlik müəssisə azyaşlı sakinlərin zövqünə uyğun qurulub, onların rahatlığını, istirahətini və ilkin biliklərə yiyələnmələrini təmin etmək üçün hər cür şərait yaradılıb. 2014-cü ilin fevral ayında Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın rəhbərliyi ilə məktəbəqədər təhsil müəssisələrinin inkişafı proqramının təqdimatı zamanı fondun məktəbəqədər təhsil müəssisələrində mövcud vəziyyətin monitorinqinin nəticələri açıqlanıb və ölkədə yeni bağçaların inşasına ehtiyacın olduğu müəyyənləşib və qeyd etdiyimiz "Qərənfil" körpələr evi-uşaq bağçası bu istiqamətdə atılan addımlardan biridir.

105 nömrəli körpələr evi-uşaq bağçası da 1985-ci ildə inşa edildikdək sonra heç vaxt təmir olunmayıb. İndi uşaq bağçası 230 uşaq yerlik olmaqla 12 qrupla fəaliyyətə başlayıb. Körpələr evi-uşaq bağçasının ərazisi abadlaşdırılıb, həyətyanı sahədə attraksionlar quraşdırılıb. Hətta burada uşaqların yol hərəkəti qaydalarına yiyələnmələri üçün xüsusi guşə yaradılıb.

Göründüyü kimi, Heydər Əliyev Fondunun məktəbəqədər təhsil müəssisələrinin yenidən qurulması, bu sahədə ciddi keyfiyyət dəyişikliyinə nail olunması ilə bağlı layihələri uşaqların sosial müdafiəsinin gücləndirilməsi istiqamətində Azərbaycanda aparılan siyasətin uğurlu və məntiqi nəticəsidir.

***Nəzakət ƏLƏDDİNQIZI***

# DAŞKƏSƏNDƏ MÜƏLLİMLƏRİN SENTYABR KONFRANSI KEÇİRİLİB

*"Əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuş müstəqil Azərbaycanın milli təhsil strategiyası bu gün Prezident İlham Əliyev tərəfindən zamanın tələblərinə uyğun olaraq yüksək səviyyədə davam etdirilir"*

***Dünən Daşkəsən rayon icra hakimiyyətinin iclas zalında rayon təhsil işçilərinin ənənəvi sentyabr konfransı keçirilib. Konfransda Daşkəsən rayon icra hakimiyyətinin başçısı Əhəd Abıyev, Təhsil Nazirliyinin nümayəndəsi Elxan Bəylərov və 200 nəfərdən çox rayon müəllimi iştirak edib. Konfrans iştirakçıları, hörmət və ehtiram əlaməti olaraq, ilk öncə rayon mərkəzində ucaldılmış Ümummilli Lider Heydər Əliyevin abidəsi önünə gül-çiçək dəstəsi qoyub, xatirəsini ehtiramla yad ediblər.***






Konfransı açıq elan edən Daşkəsən rayon icra hakimiyyətinin başçısı Əhəd Abıyev ilk öncə rayonun müəllimlərini və müəllim kollektivlərini rayon ictimaiyyəti adından salamlayıb və bütün təhsil işçilərini 2017-2018-ci dərs ilinin başlanması, qarşıdan gələn "Bilik Günü" münasibətilə təbrik edib: "Əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuş müstəqil Azərbaycanın milli təhsil strategiyası bu gün Prezident İlham Əliyev tərəfindən, zamanın tələblərinə uyğun olaraq, yüksək səviyyədə davam etdirilir. Dövlətimizin Başçısı İlham Əliyevin uzaqgörən siyasəti, genişmiqyaslı quruculuq fəaliyyəti, müstəsna təşkilatçılığı sayəsində son illərdə ölkənin bütün sahələrində, eləcə də, təhsil sahəsində qazanılmış nailiyyətlər hər bir Azərbaycan vətəndaşının qəlbində milli iftixar və ölkəmizin işıqlı gələcəyinə olan dərin inam hisslərini daha da gücləndirmişdir. Ölkə başçısının ali diqqət və qayğısı sayəsində, respublikanın hər bir yerində olduğu kimi, Daşkəsən rayonunda da təhsilin inkişafı, onun maddi-texniki bazasının möhkəmləndirilməsi, müəllimlər üçün normal iş şəraitinin yaradılması, onların maddi rifah halının yaxşılaşdırılması daim diqqət mərkəzində saxlanılır".

Ə.Abiyev çıxışında onu da bildirib ki, son 6 ildə Quşçu, Əmirvar, Mollahəsənli, Muşavaq, Bayan, Əmirvar-Əhmədli kəndlərində və Daşkəsən qəsəbəsində müasir tələblərə tam cavab verən yeni ümumtəhsil məktəbləri tikilib istifadəyə verilmiş, bir çox təhsil müəssisəsi isə əsaslı və cari təmir edilmişdir: "Daşkəsən rayonunda ötən dərs ilində də tədrisin maddi-texniki bazasının möhkəmləndirilməsi, şagirdlərin normal təhsil almaları üçün lazımi şəraitin yaradılmasına dair görülən işlərin səviyyəsi daha geniş miqyas almışdır. Birmənalı olaraq bildirirəm ki, rayonumuzda təhsilin inkişafı üçün atılan addımlar ölkə Prezidentinin biz daşkəsənlilərin bu gününə və sabahına ali diqqət və qayğısının əyani göstəricisidir. Daşkəsən rayonunda təhsilin inkişafına, onun maddi-texniki bazasının gücləndirilməsinə göstərdiyi ali diqqət və qayğıya görə çox hörmətli Prezident İlham Heydər oğlu Əliyevə bütün daşkəsənlilər adından bir daha öz dərin minnətdarlığımızı və təşəkkürümüzü bildiririk. Məlumat üçün diqqətinizə çatdırım ki, hal-hazırda Daşkəsən rayonunda 42 ümumtəhsil məktəbi, 4 məktəbdənkənar təhsil müəssisəsi fəaliyyət göstərir. Ümumtəhsil məktəblərindən 26-sı tam orta, 14-ü ümumi orta, 2-si isə ibtidai məktəbdir. Ümumilikdə, rayon üzrə təhsil müəssisələrində 580 müəllim şagirdlərin təlim-tərbiyəsi ilə məşğul olur. Həmin tədris müəssisələrinə 3 mindən artıq şagird cəlb olunmuşdur. Şagirdlərin təhsilə cəlb olunması, onların dərsliklərlə təminatı işi rayon icra hakimiyyəti və rayon təhsil şöbəsi tərəfindən daim diqqətdə saxlanılır".

Konfransda Daşkəsən təhsil şöbəsinin müdiri Zaur Məmmədov hesabat məruzəsi ilə çıxış edərək, rayonun pedaqoji işçilərinin builki ənənəvi sentyabr konfransının respublikamızın müstəqillik yolunda inamla addımladığı, təhsil islahatının uğurla həyata keçirildiyi, rayonumuzda abadlıq-quruculuq işlərinin geniş vüsət aldığı bir dövrə təsadüf etdiyini bildirib.

Hesabat məruzəsi ətrafında Mollahəsənli kənd tam orta məktəbin direktoru Arzu Aslanov, A. Mürsəlov adına 2 saylı tam orta məktəbin müəllimi Duman Mahmudova, İ.Nəsimi adına 1 saylı tam orta məktəbin müəllimi Bahirə Qurbanova və Təhsil Nazirliyinin nümayəndəsi, psixologiya elmləri doktoru Elxan Bəylərov çıxış etmişlər. Çıxışlarda yeni dərs ilinin başlanması münasibətilə rayon müəllimlərini təbrik etmiş, ölkədə təhsil işçilərinə göstərilən yüksək diqqət və qayğıdan danışmış, bütün müəllimlərə uğurlar arzulamışlar. Konfransda qərar qəbul olunmuş, ölkə Prezidentinə müraciət ünvanlanmışdır.

**RƏFİQƏ**

# Heydər Əliyev Beynəlxalq Aeroportunun sərnişin dövriyyəsi növbəti rekord göstəriciyə yaxınlaşır



Heydər Əliyev Beynəlxalq Aeroportu 2017-ci ilin yanvar-avqust ayları ərzində 2,7 milyondan çox sərnişinə xidmət edib. Heydər Əliyev Beynəlxalq Hava Limanının mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, bu ötən ilin analoji göstəricisindən 29 faiz çoxdur. İlin sonunadək yekun sərnişin dövriyyəsinin ötənilki 3,5 milyon nəfərdən çox olması gözlənilir ki, bu da aeroportun növbəti rekord göstərici olacaq.

Hesabat dövründə "Azərbaycan Hava Yolları" (AZAL) milli aviadaşıyıcısının payına 1,61 milyon sərnişin düşmüşdür ki, bunun da 408 min nəfəri daxili reyslərlə daşınıb. Sərnişinlərin 84,9 faizi beynəlxalq reyslərin payına düşüb. Bu ilin ilk səkkiz ayı üzrə statistikaya əsasən Bakıdan ən populyar beynəlxalq istiqamətlər - Moskva, İstanbul, Dubay, Kiyev və Tehran olub. Bu istiqamətlər üzrə 1,34 milyon sərnişin daşınıb. Göstərilən dövr ərzində ən fəal aviaşirkətlərin beşliyinə AZAL, Turkish Airlines, flyDubai, Aeroflot və "Ukrayna Beynəlxalq Hava Yolları" aviaşirkəti daxil olub. Bu aviaşirkətlərin reysləri ilə beynəlxalq istiqamətlər üzrə 1,78 milyon sərnişin daşınıb. Hazırda Heydər Əliyev Beynəlxalq Aeroportu 53 istiqamət üzrə 29 aviaşirkətə xidmət göstərir. Yeddi aviaşirkət - "IrAero", "Jazeera Airways", "ZagrosJet", "Pegas Fly", "Kish Air", "Nordwind Airlines" və "Wataniya Airlines" cari ilin yayından uçuşlara başlayıb.

Cari ilin sentyabr ayından ilk milli lou-koster "Buta Airways" uçuşlara başlayıb.

Aviaşirkət Moskva, Kiyev, Tbilisi, Kazan, Mineralnıye Vodı, Tehran və Antalyaya uçuşlar yerinə yetirir. Oktyabrın 29-dan etibarən "Buta Airways" Bakıdan İstanbula və Sankt-Peterburqa uçuşlara başlayacaq. Heydər Əliyev Beynəlxalq Aeroportunun yeni aerovağzal kompleksi (Terminal 1) 2014-cü ilin aprel ayında istifadəyə verilib. Onun ümumi sahəsi 65 min kvadratmetr təşkil edir. Dünyada müxtəlif aviaşirkətlər və hava limanları tərəfindən göstərilən xidmətlərin keyfiyyətinin öyrənilməsi üzrə ixtisaslaşan Böyük Britaniyanın nüfuzlu konsaltinq şirkəti "Skytrax" tərəfindən Heydər Əliyev Beynəlxalq Aeroportu 4 ulduza layiq görülüb. Cari ilin mart ayında Heydər Əliyev Beynəlxalq Aeroportu Rusiya və MDB ölkələrinin bütün hava limanları arasında göstərilən xidmət səviyyəsinə görə ən yaxşılar siyahısına başçılıq edərək Skytrax World Airport Awards mükafatına layiq görülüb.

# "Azəriqaz": Bu il 40 yaşayış məntəqəsi qazlaşdırılıb

"Azəriqaz" İstehsalat Birliyi (İB) tərəfindən 40 yaşayış məntəqəsinə təbii qaz verilib. Birliyin ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrası məqsədilə "Azəriqaz" İstehsalat Birliyi tərəfindən təxirə salınmaz işlər həyata keçirilir. Belə ki, əhali istehlakçılarının mənzillərində istismar edilən istismar müddəti başa çatmış sayğaclar yenisi ilə əvəzlənir, yeni qaz kəmərləri çəkilir və istismara yararsız vəziyyətdə olan qaz tənzimləyiciləri yeniləri ilə əvəz edilir.

İstehlakçıların qaz təchizatının yaxşılaşdırılması, şəbəkənin qaz nəqletmə imkanlarının artırılması və yaşayış məntəqələrinin qazlaşdırılması üçün birlik tərəfindən cari ilin yanvar-avqust ayları ərzində 958,3 kilometr yeni qaz kəməri quraşdırılıb, qaz kəmərləri şəbəkəsinin təhlükəsiz və normal rejimdə istismarının təmin olunması üçün isə 143,3 kilometr qaz kəməri əsaslı təmir olunub. Aparılan tikinti-quraşdırma işləri nəticəsində Goranboy, Ağcabədi, Bərdə, Şəki, Ucar, Quba, Qusar, Oğuz, İmişli, Saatlı, Sabirabad, Lerik, Ağstafa, Xaçmaz və Masallı rayonları üzrə 40 yaşayış məntəqəsi qazlaşdırılaraq təbii qazla təmin edilib.

# İrəvan xanlığından bəhs edən əsərlərin təqdimatı olacaq

Sentyabrın 13-də Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Tarix İnstitutunda "İrəvan xanlığının paytaxtı - İrəvan şəhəri", "Ermənі vandallarının yox etdiyi İrəvan qalaları", "İrəvan xanlığının mahalları" və "İrəvan xanlığının əhalisi" kitablarının təqdimat mərasimi keçiriləcək. Tarix İnstitutundan AZƏRTAC-a bildiriblər ki, bu nəşrlər Azərbaycan və rus dillərində hazırlanıb. "İrəvan xanlığı: Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi" kitabı kimi bu əsərlər də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşəbbüsü ilə yazılıb.

səs

www.sesqazeti.az

facebook Ses Media Holding

13 sentyabr 2017-ci il

# Müsavatdakı daxili çatlar partiyanın fəaliyyətini iflic edib

## Elbəyi Həsənli: "İsa Qəmbər - Arif Hacılı cütlüyündən başqa partiyada kimsə qalmayacaq"

***Müsavat partiyasının qurultayında başqanlıq seçkilərindən sonra baş verən parçalanmalar bu gün də sürətlə davam etməkdədir. Məsələ ondadır ki, sabiq başqan İsa Qəmbər partiyadaxili məsələlərə müdaxilə etməkdədir. Bu haqda olan iddiaları müsavatçılar da etiraf edirlər. Bəziləri iddia edirlər ki, əgər İ.Qəmbər öz yerini saxta seçkilər yolu ilə Arif Hacılıya təhvil versə də, partiyanın sükanı hələ də onun əlindədir. Bəziləri isə bunun normal olduğunu deyərək, İ.Qəmbərin buna haqqı olduğunu bildirirlər.***



### Arif Hacılının hegemonluq iddiası partiya içində siyasi səviyyəsizlik yaradıb

Müsavat partiyasının aktiv üzvü Elbəyi Həsənli sözügedən məsələ ilə yanaşı, başqan A.Hacılının onu partiya sıralarından uzaqlaşdıracağı haqda gəzən söhbətlərə münasibətini açıqlayıb.

E.Həsənlinin dediyinə görə, bu söhbəti ona çatdıran adam bildirib ki, A.Hacılı şəxsən mənim haqqımda da status yazıb: "Azərbaycan hakimiyyəti öz muzdurları vasitəsi ilə yeni siyasi fəaliyyət növü yaradıb. Müxalifətə müxalifətçilik".

E.Həsənli Müsavatda baş verənlərə və A.Hacılının anormal düşüncədə olmasına heç də təəccüb etmədiyini söyləyib: "Müsavatın qurultayından sonra partiyadaxili saxtakarlıqlara dözməyərək, istefa vermiş gənclər təşkilatının sədri Əhliman Abbaslının həmin vaxtlar mətbuata verdiyi açıqlamasını xatırlaya bilərik. O, partiyadan istefası ilə bağlı açıqlama verərək, bildirmişdi ki, Müsavatda hər hansı siyasi fəaliyyətin davam etdirilməsi mümkünsüzdür":

Vaxtilə müsavatçıların dediyi sözü də xatırladan E.Həsənli bildirib ki, "vaxt gələcək Mustafa Hacıbəyli əlinə bir çomaq alıb dayanacaq Müsavat partiyasının qapısının qabağında: "Kimi istəsə içəri buraxacaq, istəmədiyini də qapıdan qovacaq" fikrinin bu gün, doğrudan da, reallaşdığını bildirib. O, söyləyib ki, tezliklə Müsavat partiyası adına ortada A.Hacılının indiyə qədər qurub-quraşdırdığı qrup qalacaq: "Partiyanın bütün vitrin fiqurları ya bu dəstədən bezib kənara çəkiliblər, ya da Qubad İbadoğlunun yanındadırlar. Hələ gedənlər çox olacaq. Bilirsən ki, Qubad da mənlik deyil. Amma Arifə baxıb ona şükür edənlər çox olacaq...".

### Arif Hacılıya etiraz edənlərə qarşı linç-kampaniya

E.Həsənli onu da vurğulayıb ki, İ.Qəmbər-A.Hacılı cütlüyü haqqını tələb edən hər kəsə qarşı amansızcasına davranıb və bu gün də seçkiərəfəsi bu "siasəti" aparır: "Hətta onları əxlaqsızcasına təhqir belə etdirirlər. Bunun üçün Müsavatda xüsusi qruplar da mövcuddur ki, sosial şəbəkələrdə etiraz səslərini ucaldanlara qarşı söyüşlər yağdırırlar. Bu baxımdan, Müsavatın gənclər təşkilatının sabiq sədri xatırlatmışdı ki, partiyadakı bu qanadın əxlaq və insani dəyərləri unutmasının pik nöqtəsi hələ qurumun 8-ci qurultayı ərəfəsində baş vermişdi".

Göründüyü kimi, müsavatdaxili qarşıdurmalar partiyadaxili çatların əmələ gəlməsi prosesinə təkan verməklə yanaşı, qurumun fəaliyyətini də iflic edir. Çünki istər daha öncə, istərsə də hazırda söylənilən iradlar və təhqirlər də onu göstərir ki, bu proses elə də uzun sürməyəcək. Nəinki İ.Qəmbər, hətta onun etibar etdiyi mövcud rəhbərlik də Müsavatın parçalanaraq məhv olmasının qarşısını ala bilmək imkanına sahib ola bilməyəcəklər. Bu isə, o mənanı verir ki, Müsavat rəhbərliyində İ.Qəmbər-A.Hacılı monopoliyası çərçivəsində uzağı beş-üç nəfərin qalacaq

**Rəfiqə HÜSEYNOVA**

# Radikalları 2018-ci ilə aparan savaş və ziddiyyətlər

## Bu kimi davamiyyət ənənəvi müxalifətin fiasko tendensiyasının reallaşmasına yetərincə təkan verməkdədir

***Azərbaycanda hər seçkiöncəsi AXCP-Müsavat qarşıdurması özünü daha qabarıq şəkildə büruzə verir. Hətta bu faktorun bir ənənə şəklini alması iddiaları da özünü kifayət qədər doğruldub. Yəni bu gün "Milli Şura" daxilində iki partiya arasında yaşanan ixtilaflar ilk deyil. Bu, bir daha sübut edir ki, onlarda ümumi maraqlar deyil, şəxsi maraqlar hər şeydən üstün olduğuna görə həmin partiyalar arasında davamlı gərginlik yaşanır. Ümumiyyətlə, seçkilərdən qabaq Azərbaycan siyasi düşərgəsində müxalifətin illərdən bəri yığılıb qalmış aqressiyası nəticəsində dərin böhran müşahidə edilir. Məhz bu baxımdan, aqressiyaların kökündə dayanan iki partiya varsa, onlar cəbhəçilər və müsavatçılardır.***

### AXCP və Müsavatın bundan sonra bir araya gəlməsi mümkün görünmür

Yeri gəlmişkən, xatırlatmaq yerinə düşərdi ki, bu partiyaların bir-birinə olan münasibətlərinin rəqabət səviyyəsindən düşmənçilik müstəvisinə keçməsi "Milli Şura"nın 2013-cü il prezident seçkilərindən sonra daha da intensivləşdi ki, artıq 2018-ci il seçkilərində biz daha barışmaz, daha kəskin qarşıdurmaların şahidlərinə çevriləcəyik. Ona görə də, kifayət qədər əsaslara söykənərək, proqnozlaşdırmaq mümkündür ki, AXCP və Müsavatın bundan sonra artıq bir araya gəlməsi də mümkün görünmür. Başqa tərəfdən, Azərbaycanın aparıcı müxalifət təşkilatları arasında yaranan narazılıqlar, hətta bir qurum daxilində olan qalmaqallar onların xalq qarşısında etibarına da kölgə salır.

### Politoloq: "Müxalifət daxilində yaranmış böhran onlara yaxşı heç nə vəd etmir"

Bu arada məsələ ilə bağlı fikirlərini bildirən politoloq Zərdüşt Əlizadə də eyni fikirləri bölüşərək hesab edir ki, Azərbaycanda müxalifət düşərgəsindəki böhran istər-istəməz onlara daha çox sirayət edir. Müxalifətə yönəldilmiş "Azərbaycanda vicdanlı, təmiz siyasi rəqabət yoxdur və bunu, məhz müxalifətin simasında da görmək olar"-deyən Zərdüşt Əlizadə qeyd edib ki, müxalif siyasi mühitindəki mübarizə üsulları intriqa və qohumbazlığa söykənir. Onun sözlərinə görə müxalifətdə tanışlıq məsələlərinə çox böyük önəm verilir.

"Təəssüf ki, müxalifət daxilində yaranmış böhran onlara yaxşı heç nə vəd etmir. Məhz buna görədir ki, seçkilərdə seçicilərin sayı hər dəfə aşağı düşür. Burada xüsusi olaraq AXCP və Müsavatı göstərmək olar".

Göründüyü kimi, yarandığı gündən yalnız aşırı radikal düşərgənin inhisarı uğrunda mübarizə ilə yadda qalan, şəxsi maraqların vasitəçisinə çevrilən fikir ayrılığı artıq tam aydınlığa qovuşduğu üçün keçmiş "müttəfiqlər" bu cür açıq savaşa başlamaq məcburiyyətindədirlər. Belə ki, qarşıdan seçki ili gəlir. Bu səbəbdən, başqa-başqa adlar altında aparılan bu qarşılıqlı hücum kampaniyaları isə hələ də davam edir. Bu kimi davamiyyət isə ənənəvi müxalifətin fiasko tendensiyasının reallaşmasına yetərincə təkan verməkdədir.

**Rövşən NURƏDDİNOĞLU**

# "AXCP və Müsavat arasında qarşıdurma var"

## Tahir Kərimli: "Dağıdıcı müxalifətin "birləşmək", "bir olmaq" şousu fon yaratmaqdan başqa bir şey deyil"

***Son günlər qondarma hüquq müdafiəçiləri Leyla və Arif Yunusların, eləcə də, digər siyasiləşmiş QHT-lərin müxalifətin dağıdıcı qanadı ilə daha çox fəal əlaqələr qurduğu müşahidə edilir. Söz yox ki, bu əlaqələrin başlıca maraq dairəsi ölkədə pozuculuq aktları həyata keçirmək, stabilliyi pozmaq, ümumiyyətlə xarici fondların, təşkilatların məkrli sifarişlərini yerinə yetirməkdir. Vəhdət Partiyasının sədri, millət vəkili Tahir Kərimli "Səs" qəzetinə açıqlamasında bildirdi ki, bütün seçkilər ərəfəsi müxalifət düşərgəsini təmsil edən şəxslər özlərini reklam etməklə yersiz, qeyri-ciddi hərəkətlərə əl atırlar: "Ümid edirlər ki, onlar bu seçkilərdə nə isə bir uğur qazana biləcəklər. Amma hər kəsə məlumdur ki, ölkəmizdə bu günə qədər keçirilən bütün seçkilərdə müxalifət təmsilçiləri ağır məğlubiyyətə düçar olublar. Çünki onların xalq tərəfindən heç bir siyasi dəstəyi yoxdur. Bu baxımdan, demək olar ki, yersiz hərəkətləri onlara ancaq uğursuzluq gətirər".***



"Hazırkı məqamda müxalifət daxilində ciddi ixtilaflar və qarşıdurmalar mövcuddur. Bunun fonunda nə dərəcədə realdır ki, AXCP və Müsavatın birgə iştirakı ilə blok yaradılsın, hətta mitinqlərin keçirilməsinə nail olsunlar" sualına cavab olaraq, T.Kərimli bildirdi ki, artıq uzun illərdir ki, AXCP və Müsavat arasında qarşıdurma var və bu qarşıdurmalar heç zaman aradan qalxmayacaq: "Müxalifət partiyaları arasında olan bu qarşıdurmanın başlıca səbəbi liderlik ambisiyası, ana müxalifət olmaq uğrunda çarpışmaq, özünü digərindən daha böyük görmək, başqalarını gözdən salmaq və s. məsələlərdir. Yəni bütün bunlar müxalifətin pərakəndəliyinin, zəifliyinin, iç mübadiləsinin əsas səbəbləridir. Deməli olar ki, müxalif partiya sədrləri, biri digərindən üstün olmaq üçün, var gücü ilə çalışır. Bunun üçün də bir-biri ilə savaşmalıdırlar. Belə olan halda da, müxalif partiyalar daxilində bu cür vəziyyət yaranır. Belə ağır bir vəziyyətdə olan müxalifət partiyalarının hansısa blok yaratmalarından heç bir söhbət gedə bilməz. Lap tutalım ki, müxalifətçilər nə isə bir blok yaratdılar. Həmin birləşmənin nə faydası olacaq? Əlbəttə, heç bir faydası olmayacaqdır. Çünki onların özlərinin heç bir gücü yoxdur ki, irəliyə doğru nə isə bir addım atsınlar. Sadəcə olaraq, dağıdıcı müxalifətin "birləşmək", "bir olmaq" şousu fon yaratmaqdan başqa bir şey deyil".

**GÜLYANƏ**

***Məlum olduğu kimi, dünya ölkələrində mədəni əlaqə sayəsində qarşılıqlı mədəni zənginləşmə baş verir. Bu barədə ətraflı tədqiqat aparan Sevda Ağamirzə qızı Əhədova özünün "Müasir dünyada mədəniyyətlərarası münasibətlər" əsərində yazır: "Heç bir mədəniyyət təcrid olunmuş şəkildə, digər mədəniyyətlərin təsiri olmadan inkişaf edə bilməz. İstənilən xalqın mədəniyyətinin inkişafında və zənginləşməsində digər xalqların mədəniyyətinin təsiri böyük rol oynayır. Öz tarixi inkişafında xalqlar bir-biriləri ilə mədəni təmasa girir, başqa xalqın mədəni nailiyyətlərinin elementlərini yaradıcı şəkildə əxz edirlər.***




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği" istiqaməti çərçivəsində hazırlanıb*

# Azərbaycan mədəni qarşılıqlı zənginləşmə prosesi şəraitində

Mədəniyyətlərin qarşılıqlı əlaqəsi və təsiri müxtəlif və çoxcəhətli xarakter daşıyır. Başqa mədəniyyətin təsiri yerli mədəni ənənələrə və sosial-tarixi şəraitə cavab verirsə, asan qəbul olunur. Digər hallarda milli və lokal mədəniyyətlərə xarici mədəni amillər ciddi təsir göstərə bilmir. Özgə xalqlarla və etnoslarla qarşılıqlı əlaqəyə girən xalqın mədəniyyəti müxtəlif mədəni təsir qatlarını özündə ehtiva edir. Müxtəlif tarixi şəraitdə, müxtəlif ölkələrdə, müxtəlif ənənələrə malik xalqlarda bu təsir müxtəlif forma və səviyyələrdə özünü göstərir. Əlbəttə, mədəni təsiri bəsit şəkildə, adi riyazi əməl kimi, mədəniyyətləri toplamaq yolu ilə yeni mədəniyyətin yaranması kimi təsəvvür etmək olmaz.

Əxz edilən mədəniyyətlərin elementləri mexaniki olaraq yad mühitə keçirilmir, xalqın mentaliteti və yerli ənənələr nəzərə alınmaqla tənqidi surətdə emal edilir. Başqa mədəniyyətin yerli mədəniyyətə yad və qəbuledilməz digər elementləri isə tamamilə rədd edilir.

Mədəniyyətin özü, onun daşıyıcılarının həm öz mədəniyyəti, həm də əlaqədə olduqları digər mədəniyyətlər haqqında təsəvvürlərindən ibarət müəyyən informasiya potensialına malikdir. Tarixi inkişafı prosesində müxtəlif mədəniyyətlər arasında fasiləsiz informasiya mübadiləsi baş verir. Nəticədə də mədəniyyət, özünəməxsus milli ənənələr, inanclar, həyat tərzi, dünyagörüşü ilə yanaşı, beynəlmiləl elementləri də özündə birləşdirməyə başlayır. Ancaq eyni zamanda, hər bir mədəniyyət digər mədəniyyətlərlə nə qədər sıx qarşılıqlı təsirdə olsa da, formaca milli xarakter daşıyır. Eyni zamanda, onu da nəzərə almaq lazımdır ki, bu və ya digər xalqın mədəniyyətinə xas olan bəzi elementlər digər xalqlar üçün cəlbedici olmadığından, milli çərçivədən çıxa bilmirlər.

Ən yaxşı halda, onlar yalnız mütəxəssislərə (ədəbiyyatçılara, sənətşünaslara, etnoqraflara, mədəniyyətşünaslara və s.) məlumdurlar. Lokal mədəniyyətin daha əhəmiyyətli elementləri isə müasir mədəniyyətin sərhədlərini aşaraq, dünya mədəniyyətinin ayrılmaz hissəsinə çevrilir və onun zənginləşməsinə böyük töhfələr verirlər. Bu baxımdan, mədəniyyətin milli və beynəlmiləl aspektləri arasında qırılmaz qarşılıqlı əlaqə mövcuddur. Yalnız humanist ideyaları, ümumbəşəri dəyərləri özündə əks etdirən mədəniyyət nümunələri dünya əhəmiyyəti daşıya bilər, digərləri isə, əksinə, taleyin sınağına tab gətirməyərək, yaddaşlardan silinirlər.

Mədəni zənginləşmənin əsası odur ki, mədəniyyətlər və sivilizasiyalar vəhdət təşkil edirlər. Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyev Bakı Beynəlxalq Humanitar forumun iştirakçılarına təbrikində demişdir: "Böyük İpək Yolu üzərində yerləşən Azərbaycan uzun əsrlərdən bəri qədim mədəniyyəti və yüksək tolerantlığı ilə şöhrət qazanmışdır. Qərb ilə Şərq arasındakı körpü rolunu oynayan Azərbaycan müxtəlif xalqların və dinlərin nümayəndələrinin yer üzündə vahid ailə kimi yaşaya biləcəyini və yaşamalı olduğunu yüz illər boyu nümayiş etdirmişdir. Bizim gücümüz milli və dini müxtəlifliklədədir. Ümidvaram ki, ölkəmizin, məhz bu bənzərsiz ab-havası qloballaşan müasir dünyada dialoq ideyasına yeni stimul verəcəkdir".

Öz bənzərsiz və qədim mədəniyyəti ilə dünya xalqlarına nümunə olan Azərbaycan, demək olar ki, Qərb dünyasının əksər ölkələrilə mədəni əlaqələr yaratmışdır. Azərbaycan dövlət müstəqilliyi əldə etdikdən sonra, Azərbaycanın beynəlxalq mədəni əlaqələri yeni bir inkişaf mərhələsinə qədəm qoyaraq, sürətlə inkişaf yolunu seçmiş və insanların mədəni-estetik baxışlarında da azadlıq meyilləri təkamül etmişdir. Eyni zamanda, ölkələrin mədəni-estetik potensialında yeni bir inkişaf mərhələsinə qədəm qoydu.

Beynəlxalq mədəni əlaqələr Azərbaycan Respublikasının dövlətlərarası siyasətinin əsas prioritetlərindən birinə çevrilmişdir. Beynəlxalq mədəni əlaqələr millətlərarası xalqların, dövlətlərin bir-birilərini daha yaxından tanıyır, dəyərli cəhətləri bir-birilərindən əxz edir, ümumbəşəri və ümumdünya mədəniyyətini formalaşdırırlar. "Əslində, mədəni əlaqələr Azərbaycanın dövlətlərarası siyasətinin əsas vasitələrindən birinə çevrilərək, strateji əhəmiyyət kəsb edən fəaliyyət sahəsi kimi mövcuddur". Haqlı olaraq bu fəaliyyət sahəsinin gücləndirilməsinin millətlərin və dövlətlərin bir-birini daha dərindən tanımasına, bir-birilərinin mədəniyyətlərinin öyrənilməsinə gətirib çıxarıldığı qeyd olunur: "Bunun nəticəsində milli, dini və irqi cəhətlərə görə fərqləndirmə tədricən aradan qalxır, humanist mahiyyətli insani davranışlar dövlətlərin beynəlxalq ünsiyyətinin və siyasətinin inkişafına nəzərə çarpacaq dərəcədə təsir edir.

Digər tərəfdən, mədəni əlaqələr yolu ilə xalqlar bir-birinin mədəni irsindən bəhrələnməklə yanaşı, onların həyat tərzlərində, dünyagörüşlərində, ictimai-siyasi münasibətlərində ümumi cəhətlər formalaşır".

Bir sözlə, müxtəlif xalqlar öz milli-mədəni dəyərlərini qarşılıqlı mübadilə edərək, ümumdünya mədəniyyətlərinin yaranmasına öz töhfələrini verirlər. Müxtəlifliyin harmonik vəhdətinə yüksək qiymət verən hind yazıçısı R.Taqor yazırdı: "Əgər Fransa, İtaliya, Almaniya və Böyük Britaniya öz milli-mənəvi sərvətlərini ümumi xəzinəyə verməyərək, bir-birindən tamamilə təcrid olunmuş halda fəaliyyət göstərsəydilər, onda Avropa sivilizasiyasının nə qədər ziyan çəkə biləcəyini təsəvvür etmək o qədər də çətin deyildir". Müəllif Qərb və Şərq mədəni əlaqələri sayəsində zəngin dünya mədəniyyəti yarandığını qeyd etməklə yanaşı, bu zənginlikdə milli mədəniyyətlərin özünəməxsusluğunun qorunub-saxlanmasının da payı olduğunu xüsusi vurğulamışdır.

S.A.Əhədova daha sonra yazır: Öz növbəsində, ümumdünya mədəniyyətinin beynəlmiləl əhəmiyyətli hadisələri milli mədəniyyətlərin inkişafına güclü təkan verir, onun zənginləşməsində etalon rolunu oynayır. Əlbəttə, dünya mədəniyyətinin milli mədəniyyətlərin inkişafına təsiri, onların özləri qədər mürəkkəb və çoxcəhətli hadisədir. Qeyd edidiyi kimi, xalqlar və onların mədəniyyətləri, dünya mədəniyyətinin heç də bütün elementlərini qəbul etmirlər. Bu, xalqın ənənələrindən, inanclarından, psixologiyasından, həyat tərzindən, hətta hökumətlərin mədəniyyət siyasətindən asılıdır. Bir qayda olaraq, yad mədəniyyətin və ənənələrə zidd olmayan elementləri mənimsənilməsi həmin ənənələrə uyğun olaraq dəyişilir və transformasiya edilir.

Tarixi inkişaf prosesində müxtəlif mədəniyyətlər arasında fasiləsiz informasiya mübadiləsi gedir ki, bu mübadilə nizamsız (spontan) və məqsədyönlü səciyyə daşıya bilər. Müxtəlif dövrlərdə və şəraitdə mübadilənin intensiv) məzmunu, forma və istiqamətləri hər bir mədəniyyət üçün fərqli xarakter ola bilər ki, bu mədəniyyətin inkişafında bütöv bir dövrü və onun informasiya potensialının xüsusiyyətlərini müəyyənləşdirir.

Tarixən iki və bir neçə sosiumun mədəni dialoqu müxtəlif yollarla həyata keçirilirdi. Müxtəlif mədəni-iqtisadi tiplərə mənsub sosiumlar arasında (məsələn, oturaq və köçəri cəmiyyətləri götürək) fəal qarşılıqlı təsir prosesi gedirdi. Müəyyən amillərin təsiri altında (müharibələr, epidemiyalar və s.) bu dialoq müvəqqəti kəsilsə də, iqtisadi, sosial, mənəvi və mədəni sahələrdə özünəməxsus simbioz şəraitində həmişə davam etmişdir.

Dialoq təkcə qonşu xalqlar arasında deyil, dünyanın müxtəlif regionlarında yaşayan xalqlar arasında da getmişdir. Müntəzəm ticarət-iqtisadi əlaqələr, müxtəlif dinlərə malik insanların missionerlik fəaliyyəti, əkinçilik, sənətkarlıq, yazı, memarlıq nümunələrinin əxz edilməsi, bir-birindən uzaqda yaşayan xalqlar arasında mədəni-mənəvi mübadilənin inkişafına, mədəniyyətin yayılmasına və dialoquna öz müsbət təsirini göstərirdi.

Nəzərə almaq lazımdır ki, bir-birilə qarşılıqlı əlaqəyə girən mədəniyyətlər deyil, müxtəlif mədəni cəmiyyətlərə mənsub olan insanlardır. Elə insanların özləri, bir qayda olaraq, müxtəlif mədəniyyətlərə mənsub olduqlarına görə deyil, onları maraqlandıran konkret problemlərə və onların həlli ilə bağlı öz səylərini birləşdirmək məqsədi ilə qarşılıqlı əlaqələr qururlar. Ona görə də, Rusiya filosofu A.Hüseynov mədəniyyətlərin qarşılıqlı münasibətlərini fərdlərin və şəxsiyyətlərin qarşılıqlı münasibətlərinin modeli əsasında həyata keçirilməsini zəruri hesab edir və qarşılıqlı hörmətin bu münasibətlərin əsası olduğunu qeyd edir. İnsanlar kimi mədəniyyətlər də müxtəlif ola bilirlər, lakin onların dəyər statusu eynidir. İnsan və mədəniyyət bir-biri ilə qırılmaz surətdə bağlıdır. İnsan necədirsə, onun mədəniyyəti də o cürdür. Onun həyat tərzi, maraq və məqsədləri tərbiyə aldığı mədəni mühitdən birbaşa asılıdır.

**Vahid ÖMƏROV,**
**fəlsəfə üzrə fəlsəfə doktoru**

# səs

Son səhifə 13 sentyabr


## Qastroenteroloq: Qəhvə mədə ağrılarına səbəb olur

Mədənizin sağlam olmasını istəyirsinizsə, qəhvədən az istifadə edin. AZƏRTAC xəbər verir ki, bu sözləri Azərbaycan Tibb Universitetinin (ATU) Tədris Terapevtik Klinikasının qastroenteroloqu Vüqar Rəsulov ATU-nun mətbuat xidmətinə bildirib.




Həkim deyib: "Çox ət yeyənlər səhərlər limon şirəsi içməklə, mədə qıçqırmasının qarşısını ala bilərlər. Bunun üçün həmçinin 20-30 qram kəklikotunu bir litr qaynanmış suda dəmləyib, süzdükdən sonra oan bir qədər bal əlavə etmək olar. Hazır məhlulu yeməkdən sonra bir fincan içmək məsləhətdir. Mədə üçün münasib yeməklərdən biri də kahıdır. Xörək yeyərkən kahıdan istifadə etmək lazımdır. Xörəkdən qabaq balı su ilə qatıb şərbət kimi içmək də mədə şirəsinin ifrazına kömək edir.

Mədə ağrısı, turşuluğun artması və gizilti zamanı bağayarpağını azca suda qaynadıb, 15 dəqiqə dəmə qoyduqdan sonra süzərək, az miqdarda bal qataraq şirin edib, istifadə etmək olur. Şirinbiyan həzm ağırlığı zamanı faydalı bitkilərdən biri hesab edilir. Gülümbaharın dəmləməsi mədə ağrısı və həzm pozğunluğu zamanı işlədilir. Yerkökü mürəbbəsi mədə zəifliyinə qarşı yaxşı dərmandır.

Çödükotunun dəmləməsi də mədə zəifliyi zamanı işlədilir. Bu baxımdan süsənbər də eyni təsirə malikdir. Gülxətmi kökünün dəmləməsi mədə xorası üçün tövsiyə edilir. Mədə üçün faydalı meyvələrdən biri də heyvadır. Onu suda bişirib yemək məsləhətdir. Soğan və tərxun mədə üçün faydalıdır, həm də infeksiyaya qarşı təsirlidir".

## 13 ölkə yanacaqla işləyən avtomobillərdən istifadəni qadağan edəcək



Dizel və benzinlə işləyən nəqliyyat vasitələrini qadağan edən ölkələrin sayı artır. Dünyanın ən böyük iqtisadiyyatları arasında yer alan Çin, Hindistan, Fransa, İngiltərə və Norveç kimi ölkələr müxtəlif vaxtlarda benzin və dizellə çalışan nəqliyyat vasitələrini qadağan etməyə hazırlaşır. AZƏRTAC xəbər verir ki, Beynəlxalq Enerji Agentliyinin son hesabatına görə, bu ölkələrlə yanaşı daha 8 ölkə oxşar addımı atmağa hazırlaşır.

Dünyanın ən böyük avtomobil bazarı olan Çin şirkətlərin elektrik enerjisi ilə işləyən avtomobillərin istehsalı sahəsinin inkişaf etdirilməsi ilə bağlı səylərini artırmağı hədəfləyir. Yanacaqla çalışan nəqliyyat vasitələrini qadağan etməyə hazırlaşan təkcə Çin deyil. İngiltərə 2040-cı ildən ölkənin havasını təmizləmək üçün benzin və dizellə işləyən nəqliyyat vasitələrini qadağan etməyi planlaşdırır. 2050-ci ilə qədər isə yollarda olan bütün nəqliyyat vasitələri sıfır emissiyalı nəqliyyat vasitələri olacaq. İngiltərə ildə 2,7 milyon nəqliyyat vasitəsi satışı həyata keçirən dünyanın ən böyük avtomobil bazarıdır.

Bundan başqa, Fransa da qlobal istiləşməyə qarşı mübarizə məqsədilə 2040-cı ilə qədər yanacaqla çalışan nəqliyyat vasitələrinin satışını məhdudlaşdırmağa hazırlaşır. 2040-cı ildən sonra Fransa yalnız elektrik enerjisi ilə işləyən, hibrid və digər təmiz yanacaqla çalışan nəqliyyat vasitələrinin satışına icazə verəcək.

## ELAN

**Rezai Rondabeh Eynoullah qızına məxsus Bakı şəhəri Nərimanov rayonu, K.Rəhimov küçəsi-3A saylı evin 102 saylı mənzilinin RX seriyalı 0117153 nömrəli ÇIXARIŞI itdiyi üçün etibarsız sayılır.**

## Dünyanın ən güclü şahmatçısı Berlində məlum olacaq




***2018-ci il martın 10-dan 28-dək Berlində şahmat üzrə dünya çempionu adı uğrunda iddiaçıların turniri keçiriləcək. AZƏRTAC xəbər verir ki, 14 dövrədən ibarət turnirdə dünyanın 8 aparıcı qrossmeysteri iştirak edəcək. Turnirin qalibi hazırkı şahmat tacının sahibi norveçli Maqnus Karlsenlə dünya çempionu adı uğrunda mübarizə aparmaq hüququ qazanacaq. Bundan əvvəlki turnir 2016-cı ilin martında Moskvada keçirilib.***

Turnirdə qələbə qazanan rusiyalı Sergey Karyakin elə həmin ilin payızında Karlsenlə yarışmada şahmat tacını ona güzəştə gedib. İddiaçıların Berlin turnirində vitse-çempion dərəcəsində iştirak edən Karyakinlə yanaşı, FIDE-nin ən yüksək reytinqinə malik iki şahmatçı, Qran-Pri seriyasının iki qalibi, həmçinin hazırda Gürcüstanda keçirilən Dünya kubokunun qızıl və gümüş mükafatçıları mübarizə aparacaqlar. Sonuncu iştirakçı isə yarışmanın təşkilatçısı olan "World Chess" şirkəti tərəfindən müəyyən ediləcək.

Turnirin minimal mükafat fondu 420 min avrodur. 2018-ci ildə mükafat fondu turnirə onlayn-bilet satışından daxil olan gəlir hesabına 10 faiz artırılacaq. Biletlər oktyabrın 4-dən satışa çıxarılacaq. Almaniyanın ənənəvi şahmat ölkəsi olduğunu bildirən Beynəlxalq Şahmat Federasiyasının Prezidenti Kirsan İlyumjinov deyib: "İkinci dünya çempionu Emanuil Lasker məhz oradandır. Bizim hesabatlara görə, Almaniya əhalisinin 20 faizi şahmatla məşğuldur və ya nə vaxtsa məşğul olub. İdmanın bu növü ölkədə çox populyardır".

## Stolüstü tennis üzrə Azərbaycan yığması Avropa çempionatında mübarizə aparacaq

Sentyabrın 13-17-də Lüksemburqda stolüstü tennis üzrə Avropa çempionatı keçiriləcək. Azərbaycan Stolüstü Tennis Federasiyasından AZƏRTAC-a bildirilib ki, çempionat ərəfəsində ümumi konqres və Avropa Stolüstü Tennis İttifaqının 60 illik ildönümünə həsr olunmuş tədbir keçiriləcək. Azərbaycanı çempionatda bir qadın və bir kişi komandası təmsil edəcək. Həmçinin federasiya rəsmilərinin konqresdə və yubiley tədbirində iştirakı nəzərdə tutulub.

## "Qarabağ" - "Roma" oyununa 30 min bilet satılıb



"Qarabağ"ın Çempionlar Liqasının qrup mərhələsinin ilk ev oyununda qarşılaşacağı "Roma"yla matçın bilet satışı davam edir. "Qarabağ" Klubunun saytında yer alan xəbərə görə, bu günə olan məlumata görə, artıq bu qarşılaşmaya satılan biletlərin sayı 30 minə çatıb. Azarkeşlərimiz biletləri aşağıda qeyd olunan satış məntəqələrindən və onlayn olaraq iTicket.az saytından əldə edə bilərlər. Biletləri əldə edərkən şəxsiyyət vəsiqəsi təqdim olunmalıdır. Qeyd edək ki, "Qarabağ" - "Roma" matçı sentyabrın 27-si saat 20:00-da start götürəcək.

## Şimali İrlandiya yığmasının baş məşqçisi həbs edilib

Millimizin DÇ-2018-in seçmə mərhələsindəki rəqibi Şimali İrlandiya yığmasının baş məşqçisi Maykl O`Nil həbs edilib. Qol.az-ın "The Scottish Sun"a istinadən yaydığı xəbərə görə, 48 yaşlı mütəxəssis sentyabrın 10-da Şotlandiyanın paytaxtı Edinburqda sərxoş halda avtomobil idarə etdiyi üçün polis onu saxlayıb. O`Nil ifadə vermək üçün oktyabrın 10-da məhkəməyə çağırılıb. Qeyd edək ki, M. O`Nil 2012-ci ildən Şimali İrlandiya millisini çalışdırır. Onun baş məşqçisi olduğu komanda DÇ-2018-in seçmə mərhələsində C qrupunda 19 xalla 2-ci pillədə qərarlaşıb.


*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 32.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

*Buraxılışa məsul: Mətləb Salahov*

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur

*Qəzetdə AzərTAc, SİA, APA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 5500**